45_27 IYUl-QARA.qxd 12/19/2024 9:52 PM Page 1


# UNİKAL

№47 (2229) 20 dekabr 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az


# Fransa regionu savaşa sürükləyən addımlar atır: "Azərbaycan hərbi yolla cavab verə bilər"



Səh.9



## Sahil Babayev yenə də tənqid hədəfində

*Bu günlərdə Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev pensiyalarla bağlı diqqətçəkən rəqəmlər səsləndirib. Onun dediyinə görə, Azərbaycan pensiyaçılarının pensiyada olma müddəti 14,8 ildir. Sitat: "Bu özü göstərir ki, bizim pensiya sistemimiz sosialyönümlüdür. 57% yaşa görə pensiyaçılarımız 12 ildən artıq pensiya alır. Amma biz hər zaman qeyd edirik ki, pensiya sistemi dayanıqlı olmalıdır". Nazirin təqdim etdiyi rəqəmlərdən belə məlum olur ki, Azərbaycanda orta ömür 80 yaşa çatır (65+14.8= 79.8). Yəni 65 yaşda pensiyaya çıxmış vətəndaş orta hesabla 15 ilə yaxın pensiya və ya müavinət alır. Halbuki Dövlət Statistika Komitəsi (DSK) 2022-ci ilin sonuna əhali statistikasıyla bağlı bilgiləri əks etdirən hesabatında Azərbaycanda gözlənilən ömür uzunluğunu 73.6 il hesablayıb. Ayrıca götürdükdə isə qadınların gözlənilən orta ömür uzunluğu 76 yaşa, kişilərdə isə 71 yaşa bərabərdir. Sahil Babayevin dediklərindən belə çıxır ki, ölkədə orta ömür rəsmi statistika qurumunun dediyi kimi yox, ondan 5-6 il daha uzundur. "Azpolitika.info" mövzu ilə bağlı...*

Səh.5

## "Azərbaycan bu məsələyə sakitliklə baxa bilməz"



*Milli Məclisin deputatı Aydın Mirzəzadə "Unikal"a müsahibə verib. O, Prezident İlham Əliyevin "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibəsində qeyd etdiyi məsələlər ətrafında fikirlərini bölüşüb. Eyni zamanda Ermənistanın sürətlə silahlandırılmasından...*

Səh.4

## Azərbaycan XİN-dən ABŞ-yə və Fransaya cavab



*Hökumətin uğursuzluğunu ört-basdır etmək, uğursuz dövlətin göstəricilərindəndir. "Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə Fransanın Azərbaycandakı səfiri Ann Buayona cavabında deyib. O qeyd edib ki...*

Səh.3

## Əli Əsədov: "Azərbaycanın sülh gündəliyinə sadiqdir"



*Azərbaycan 30 ilə yaxın davam edən erməni işğalına son qoyaraq, öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa edib. "Unikal" xəbər verir ki, bunu Baş nazir Əli Əsədov Qahirədə D-8 11-ci Zirvə görüşündə deyib. Baş nazir bildirib ki, Ermənistan işğal etdiyi torpaqlarımızda azərbaycanlılara qarşı...*

Səh.2

45_27 IYUl-QARA.qxd 12/19/2024 9:55 PM Page 2



# Aygün Kazımova ilə belə yekun vurdu



***Xalq artisti Aygün Kazımova daha bir yeni mahnısını sevənlərinin ixtiyarına verib.***

Axşam.az xəbər verir ki, Ölkənin əsas ulduzu bu dəfə ritmik və fərqli janra müraciət edib. "Can ol" adlanan mahnının müəllifi YAP10-dur.

Bəstənin aranjimanı Özbəkistanda Jasur Bədəlbəyov tərəfindən edilib. Jasur Yıldız Usmanovanın "Muhabbet" mahnısının aranjimançısı olub.

Pop kraliça mahnısı üçün obyektiv qarşısına keçərək fotosessiya da etdirib. Fotolar Moskvada Vera Parohina tərəfindən lentə alınıb.

Qeyd edək ki, Pop kraliça bu il "S.O.S", "Bilmək olmaz" kimi hitlərə imza atıb. Kazımovanın bir neçə həftə əvvəl təqdim etdiyi "1" mahnısın da baxışı milyonu keçib TikTok-da viral olub.

# "İndiki müğənnilər qəpik-quruş qazanırlar" - Təranə Qumral



***Müğənni Təranə Qumral açıqlaması ilə diqqət çəkib.***

"Gün ortası" verilişində qonaq olan ifaçı indiki müğənnilərin qazancından danışıb: "Tələbat nəyədirsə, gənclərimiz onu oxuyur. Sən onu sevirsən, aparırsan bir mahnısı ilə evində qulaq asırsan. O da məcburdur ki, ikinci mahnısını eyni ifa etsin ki, sabah ondan yaxşı toya getsin, gündəmdə olsun. Biz "AzTV" dövründən gəlmişik. O vaxt trend yox idi. Hamı oxuyurdu, hamı sevilirid, hamının ayrı-ayrı adı var idi. 4-5 populyar, reklamlı müğənni var idi. Gedirdik toylara... O qədər toylarımız olurdu ki, bir ilə çatmırdı, gələn il üçün növbəyə dururdular. İndiki oxuyanlar bizim dövrümüzdəki pulları görmürlər. İndikilər qəpik-quruş qazanırlar". (olay.az)



# Nazilə Səfərli adından "dilənçilik" edildi

***Məşhur şair Nazilə Səfərlinin adından istifadə olunaraq dələduzluq edilib.***

O, bu haqda İnstaqramda paylaşıb. Həmin postda o qeyd edib ki, bir nəfər dostlarına yazaraq, onlardan onun adı ilə pul istəyirlər: "Mənim adımdan zəng edib pul dilənirlər. Saxtadır. Kimi yığsa polisə müraciət etsin".

# Mətanət Əliverdiyeva polisə şikayət etdi



***Aparıcı Mətanət Əliverdiyeva adından dələduzluq edən şəxsdən polisə şikayət edib.***

Aparıcı bu haqda "Xəzər axşamı" proqramında deyib. O bildirib ki, hazırda məsələ ilə bağlı araşdırma aparılır: "Bu nömrədən bütün tanışlarıma mesaj yazıb, pul istəyirlər. Klarnet ifaçısı Vüsal Ramizoğludan 150 manat, Mətanət Əsədovadan 100 manat alıblar. Həmin şəxsi polisə şikayət etdim. Başqa nömrədən adama zəng etdim, səsimi eşidib bağladı və nömrəmi "qara siyahıya" atdı".

Qeyd edək ki, bundan əvvəl şair Nazilə Səfərli, rəqqasə Rena Ağamuradova (Renka) və aktrisa Pərvin Abıyevanın da başına bənzər hadisə gəlib.

# "Biz evlənəndə dedilər ki, 3 aya boşanacaqlar"

***Türkiyəli müğənni Doğuş ailə həyatı barədə maraqlı açıqlamalar verib.***

"Unikal" bildirir ki, "Bize bize" verilişində qonaq olan sənətçi həyat yoldaşı, Əməkdar jurnalist Xoşqədəm Hidayətqızı ilə bağlı sualları cavablandırıb.

Doğuş ailəsinə çox bağlı olduğunu etiraf edib.

# "Onları evinə aparıb, başına pullar tökürlər" - Nüşabə Ələsgərli

***Əməkdar artist Nüşabə Ələsgərlinin efirdə jurnalistlə sözləri çap gəlib.***

"Gün ortası" verilişində qonaq olan müğənni bayağı ifaçılarla bağlı mövzuya fikir bildirib. Həmin sənətçiləri insanların məclislərinin yuxarı başlarına gətirib, başlarına pullar tökdüyünü deyən Ələsgərli gileyini dilə gətirib.

# "Bəzi Xalq artistləri düşükdürlər" - Ülvi Qılınc

***Məşhur "O Səs Türkiyə" layihəsinin iştirakçılarından olan tanınmış opera müğənnisi Ülvi Qılınc sərt açıqlamalar verib.***

"Maqazin Plus" verilişinə müsahibə verən sənətçi bəzi xalq artistlərini yerdən-yerə vurub.

Onları düşük adlandıran Qılınc bunları deyib: "Tiktok bizim yox biz onun evini yıxdıq. Müğənnilər düşdükcə aşağı düşüblər. Bu qaraçıları efirdən yığışdırmaq lazımdır. Çox xahiş edirəm. Bunun sonu yoxdur".

# Məmur balalarının yaxta sevdası

## Gözqamaşdırıcı dəbdəbə, ağlasığmaz qiymətlər... - Bizdə kimlərin "üzən dəbdəbə"si var?

***Yola salmaq üzrə olduğumuz həftə sosial şəbəkələrdə "rent.yaxta", "yaxtaların icarəsi" və digər adlar altında saxta elanlar yerləşdirməklə vətəndaşlara qarşı kütləvi dələduzluq edən şəxslərin müəyyənləşdirildiyi açıqlandı.***

DİN-in Mətbuat Xidmətindən verilən məlumata görə, paytaxtda polis əməkdaşları tərəfindən keçirilən tədbirlərlə 23 yaşlı Nihat Azadov və tanışı 23 yaşlı Şamama Mahmudova saxlanılıblar. Onlar ayrı-ayrı şəxslərdən müxtəlif məbləğlərdə pulu hissə-hissə onlayn yolla ilkin ödəniş formasında aldıqdan sonra həmin şəxsləri bloklayıblar.

Qeyd olunub ki, onların əməlləri ilə bağlı Nəsimi Rayon Polis İdarəsinin 22-ci Polis Şöbəsində araşdırmalar davam etdirilir. N.Azadov və Ş.Mahmudovanın qanunsuz əməllərindən zərərçəkən başqa şəxslər varsa bu barədə polisə məlumat verə bilərlər".

DİN vətəndaşlara bir daha tövsiyə edir ki, sosial şəbəkələrdə kirayə, alqı-satqı, xidmət, yaxud digər adlar altında fəaliyyət göstərən profil, səhifələrin təklifləri üzrə onlayn ödənişlərdən çəkinsinlər.

Mövzunun aktuallığını nəzərə alaraq "Unikal" qəzeti Azərbaycanda yaxtalar və onların kirayəsi ilə bağlı araşdırma aparıb.

### Yaxtaların tarixi və gözqamaşdıran qiymətləri!

Öncə onu qeyd edək ki, yaxta" holland sözüdür, qovmaq, təqib etmək mənasını verir.

Yaxtalar motorlu, yaxud yelkənli yüngül gəmidir. Yelkənli yaxtalar daha geniş yayılıb. İlk yelkənli yaxtalar 17-ci əsrdə meydana çıxıb. Hazırda yaxta əsasən imkanlıların istifadə etdiyi su nəqliyyat növüdür.

Müasir dövrdə yaxtaları üç qrupa bölmək olar: yelkənli, yelkənli-motorlu və motorlu yaxtalar.

Amma bütün müasir yelkənli yaxtaların da, demək olar, hamısının köməkçi motoru olur.

Son hesablamalara görə, dünyanın ən bahalı 10 yaxtası aşağıdakılardır:

1. "History Supreme" - 4,8 milyard dollar. Malayziyalı sahibinin istəyi ilə qızılla örtülmüş gövdə ilə istehsal edilən, istehsalında platin və bir çox daşqaşdan istifadə edilib.

2. "Eclipse" - 1,5 milyard dollar. Uzunluğu 163,5 metr olan "Eclipse" dünyanın ikinci ən uzun yaxtasıdır. 70 ekipaj üzvünün çalışdığı yaxtada iki 16 metrlik hovuz, bir neçə cakuzi, iki helikopter meydançası, diskoteka zalı və hətta raketdən müdafiə sistemi var. "Eclipse"in gövdəsi zirehlə örtülüb və pəncərələri güllə keçirməzdir.

3. "Azzam" - 650 milyon dollar. 180 metr uzunluğu ilə dünyanın ən böyük yaxtasıdır. Birləşmiş Ərəb Əmirliklərinin prezidenti Xəlifə bin Zayed Əl Nəhyana məxsus "Azzam"ın interyeri gizli saxlanılır.

4. "Rising Sun" - 590 milyon dollar. 138 metr uzunluğundakı bu motorlu yaxta 2004-cü ildə Almaniyanın Lürssen Gəmiqayırma Zavodunda nəhəng texnologiya şirkəti "Oracle"ın baş direktoru Larri Ellison üçün tikilib və daha sonra 2010-cu ildə amerikalı iş adamı David Geffenə satılıb. 8 min kvadratmetr yaşayış sahəsi və beş göyərtədə 82 kabinəsi var.

5. "A+" - 527 milyon dollar. 2012-ci ildə suya buraxılan 147 metr uzunluğundakı super yaxta səkkiz göyərtəlidir, onun iki helikopter meydançası, cakuzisi, idman zalı və 62 nəfərlik kinoteatr zalı var.

6. "Y 721" - 500 milyon dollar. Dünyanın ən varlı adamları siyahısında yer alan Ceff Bezosun yeni yelkənli yaxtası 127 metr uzunluğu ilə dünyanın üçüncü ən böyük yelkənli qayığıdır. Yaxta ilə bağlı təfərrüatlar hələ də məxfi saxlanılır, lakin sızan məlumatlarda onun arxa tərəfində nəhəng üzgüçülük hovuzunun olması, 18 qonaq və 40 nəfərlik ekipajı qəbul edə bildiyi vurğulanır.

7. "Luna" - 500 milyon dollar. 2010-cu ildə buraxılan "Luna" dünyanın ikinci ən böyük kəşfiyyat yaxtasıdır. İlk sahibi məşhur rusiyalı iş adamı Roman Abramoviç olan 115 metr uzunluğundakı yaxta 6 ildən sonra əl dəyişdirib və 50 milyon avroya bərpa olunub.

8. "Motor Yacht A" - 400 milyon dollar. 13 milyard dollar sərvətə çatan rusiyalı iş adamı Andrey Melniçenkoya məxsus bu yaxtanın uzunluğu 119 metrdir, yelkənli qayıq kimi də istifadə oluna bilir, Snoop Dogg və Lenny Kravitz kimi məşhurların çıxış etdiyi diskotekaya sahibdir.

9. "Dubai" - 400 milyon dollar. İddialara görə, "Dubai" saatda 2 300 dollar yanacaq sərf edir və çəni 500 min dollara doldurulur. Kapitanın maaşı 22 min dollar, aşpazın maaşı isə 11 min dollardır. 50 nəfərlik ekipajın aylıq xərcləri 100 min dollardan çoxdur.

10. "Serene" - 330 milyon dollar. İtalyanın Fincantieri zavodu tərəfindən 2011-ci ildə Rusiyanın ən zəngin adamlarından biri olan Yuri Şefler üçün inşa edilən bu yaxtanın hazırkı sahibi ərəb milyarder Məhəmməd bin Salmandır. Yaxtada bir vertolyot anqarı, iki helikopter meydançası, həmçinin sualtı qaraj, kinozal, qapalı hovuz, cakuzi və iki dalğa hovuzu var.



### Yaxtaların kirayə qiymətləri...

Araşdırmamız nəticəsində aydınlaşıb ki, Azərbaycanda yaxtaların və onların kirayəsinin qiyməti orta statistik vətəndaşın qazancı ilə müqayisədə xeyli yüksəkdir. Məsələn, elan saytlarında Azərbaycanın özündə inşa olunan öncədən sifarişlə 340 min manata, hazır şəkildə 565 min manata da yaxta satılır, hissəli ödənişlə 250 min manata, yaxud 160-190 min manata xarici ölkələrdə istehsal edilmiş yaxtalar da...

Lakin yaxtaların qiymətində onun parametrləri mühüm rol oynayır və bu mənada lüks yaxtaların qiyməti 1,5-2 milyon arasında dəyişir. Lakin belə yaxtaların satışı ilə bağlı elanlara rast gəlmək o qədər də asan deyil.

Yaxtaların kirayəsi ilə bağlı qiymətlər də onların ölçüləri və komfort imkanları ilə bağlıdır. Ən ucuz yaxta kirayəsi saatlıq 150-200 manatdan başlayır, 300-500 manatadək yüksəlir. Üstəlik, kirayə saatı artıqca qiymətlərdə endirim edilir. Bundan başqa, saatlıq 750-1000 manatlıq yaxta kirayəsinə dair də iddialar var.

Bir sözlə, yaxta sahibi olmaq da, onu kirayələmək də orta statistik vətəndaş üçün ancaq arzu ola bilər...

### Azərbaycanda yaxta sahibləri kimdir?

Azərbaycanlı bir çox imkanlı şəxslərin, o cümlədən, indiki və eks-məmurların, xüsusilə də onların dəbdəbə həvəskarı olan övladlarının yaxta sahibi olduqları sirr deyil. Məsələn, Xəzər Dəniz Gəmiçiliyi İdarəsinin mərhum rəisi Aydın Bəşirovun sağlığında qiyməti milyonlarla ölçülən yaxtaları barədə yerli media bir zamanlar mütəmadi yazırdı.

Hətta təxminən 10 il öncə Bakı buxtasında mərhum Bəşirovun ailəsinə məxsus yaxtanın yoxa çıxması barədə xəbər yayılmışdı.

Sonradan bəlli olmuşdu ki, yaxtanı kimsə oğurlamayıb. Üstəlik, aydınlaşmışdı ki, oğurlandığı iddia olunan yaxta Aydın müəllimin oğluna məxsusdur. Belə ki, oğul Bəşirov atası Xəzər Dəniz Gəmiçiliyi idarəsinə rəhbərlik etdiyi vaxtlarda, Bakıdan İranın Ənzəli limanı marşurutu üzrə hərəkət edən "Vətən" adlı gəmini oğlunun adına özəlləşdirib. Oğlu isə özəlləşdirilən dövlət əmlakını yaxta kimi yenidən qurdurub.

Bu məlumatları həmin vaxt artıq ləğv edilmiş Xəzər Dəniz Gəmiçilik İdarəsindən də təsdiqləmişdilər.

Bir məqam isə qaranlıq qalmışdı: necə olur ki, bir məmur övladı dövlət əmlakını özəlləşdirir və onun saxlanılmasına küllü miqdarda vəsait sərf edir. Axı yaxtanın saxlanılma xərcləri az deyil.

ARDNŞ-nin sabiq prezidenti Rövnəq Abdullayevin də yaxtası olduğuna dair məlumatlar var. Hələ 2010-cu ildə KİV-də yayılan məlumatlarda bildirilirdi ki, onun yaxtasının qiyməti 2 milyon dollardan artıqdır. Nə isə...

Sabiq nəqliyyat naziri Ziya Məmmədovun da yaxtasının olduğuna dair illər öncə çox sayda məlumatlar vardı. 2017-ci ildə onun oğlu Anar Məmmədovun Türkiyədəki yaxtasını satışa çıxardığı məlum olmuşdu. Belə ki, atasının işdən çıxarılmasından sonra oğul Məmmədov təkcə Azərbaycandakı deyil, xaricdəki əmlaklarını da satışa çıxarmışdı. Bunların arasında onun yaxtası da vardı. Anar Türkiyədəki "Only One" adlı yaxtasını nə az, nə çox düz 19 milyon avroya satışa qoymuşdu. Məlumata görə, sözügedən yaxtanın bütöv adı "Baglietto Only One" idi, onun əyləncə və idman zalları olmaqla 5 otağı vardı.

Bir sözlə, Azərbaycan məmurlarının yaxta sevgisi yeni deyil. Onlar olduqca bahalı yaxtalara sahibdirlər. Hətta illər öncə Türkiyədə "İnternational Boatshow" adlı beynəlxalq sərgidə müxtəlif növ yaxtalar ictimaiyyətə təqdim olunarkən yerli KİV yazırdı ki, türk yaxtaları İndoneziya, Rusiya və İordaniyadan olan iş adamlarının diqqətini çəkib. Sərgidə satışa çıxarılan yaxtaların qiyməti 3 milyon avroya qədər yüksəlirmiş. Ümumilikdə isə 380 yaxta və motorlu qayığın qiyməti o vaxtkı məzənnə ilə 1 milyard türk lirəsi civarında dəyərləndirilmişdi.

Bu faktı maraqlı edən isə yaxta sahibi olmaq istəyən varlılar arasında azərbaycanlı oliqarxların ön sırada qərarlaşması idi. Media qeyd edirdi ki, həmin varlı azərbaycanlıların arasında müəyyən vəzifəli şəxslərin, yaxud onların övladlarının olması qətiyyən istisna edilməməlidir.

Görünür elə məmurlar, imkanlı şəxslərimizin yaxtalara xüsusi sevgisindən idi ki, 2014-cü ilin mayında Bakıda ilk dəfə olaraq 1-ci Xəzər Beynəlxalq Katerlər və Yaxtalar sərgisi də keçirilib. Sərgi Dövlət Dəniz Administrasiyası tərəfindən dəstəklənmişdi. Tədbirdə 14 ölkədən 44 şirkət iştirak etmişdi. Həmin sərgidə nümayiş etdirilən lüks yaxtalara varlılarımızın gözünün düşməsi və həmin "bahalı oyuncaqlardan" özləri üçün sifariş etmələri tamamilə real sayılırdı.

Maraqlıdır ki, sonradan bu sərgi bir neçə dəfə də təşkil edildi, lakin axır illərdə həmin sərginin təşkil edildiyinə dair xəbərlərə rast gəlinmir, üstəlik, bu, Azərbaycanda vəzifəli və imkanlı şəxslərin qıcıq doğuran həddsiz dərəcədə dəbdəbəli həyat tərzi ilə bağlı ictimai narazılıqların artmasından sonraya təsadüf edib.

### Və sonda:

Ölkə rəhbərliyinin sərt tənqidlərindən, xəbərdarlıqlarından, ictimaiyyətin isə kəskin reaksiyalarından sonra bizdə məmurların və onların övladlarının gözqamaşdırıcı, lüks yaşayışı barədə xəbərlər son zamanlar xeyli səngiyib. Onlar özlərinin bahalı avtomobillərini də, villalarını da cəmiyyətin diqqətindən kənarda tutmağa çalışırlar. Əvəzində xaricdə "həyatın ləzzətini" çıxarmağa çalışırlar. Bu sırada bəzi əcnəbi diyarlarda, məsələn, Dubayda "yaxta kefi" yaşamaq da var.

Kimlərinsə lüks həyat tərzinə susayıb eyni kefi yaşamaq istəyənlərə isə ara yerdə pullarını dələduzlara yem etməməyi məsləhət görməkdir. Yoxsa ara yerdə "Əli aşından da olacaqsınız, Vəli aşından da...".

***Toğrul Əliyev***

# Fransa regionu savaşa sürükləyən addımlar atır: "Azərbaycan hərbi yolla cavab verə bilər"

***Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 17-də "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibəsində mühüm məqamlara toxunaraq istər regionumuzda, istərsə də qlobal təhlükəsizliklə bağlı əhəmiyyətli mesajlar verib. Dövlət başçısının müsahibəsi regional və beynəlxalq çağırışları da özündə əks etdirib.***

Prezident ölkəmizlə yanaşı, regionda, bütövlükdə beynəlxalq aləmdə baş verən proseslərə yeni konseptual yanaşma ortaya qoyub. Dövlət başçısının önə çəkdiyi əsas məqamlardan biri də Ermənistan və onun havadarlarının destruktiv fəaliyyəti ilə bağlı səsləndirdiyi fikirlərdir. Onun Fransa ilə Ermənistanın hərbi-texniki sahədə əməkdaşlığının regional təhlükəsizliyə birbaşa təhlükə törətdiyini vurğulaması da diqqətçəkən məqamlardandır.



"Bu, birbaşa təhlükə deməkdir, biz bu barədə həm açıq şəkildə, həm də Ermənistanın baş naziri ilə danışıqlarımızda dəfələrlə demişik, narahatlığımızı ona çatdırmışıq. Biz eyni narahatlığı Fransa hökumətinə və Bayden administrasiyası dövründə Cənubi Qafqaz ölkələrinə balanslı yanaşmasını dəyişərək Ermənistana birtərəfli dəstək yolunu tutan Birləşmiş Ştatların rəhbərliyinə də çatdırırdıq. Təhdidlərin kifayət qədər ciddi olduğunu göstərən çoxlu misallar var. Makron hökumətinin Ermənistana tədarük etdiyi silahlar hücum silahlarıdır, öldürücüdür və Azərbaycan üçün praktiki təhlükə yaradır. Nəzərə alsaq ki, Ermənistanla sərhədimizin uzunluğu min kilometrdən çoxdur, bir çox yaşayış məntəqələri sərhədə yaxın yerləşib və bu yaşayış məntəqələrinin əksəriyyətinə keçmiş köçkünlər qayıdırlar, təbii ki, biz bu prosesi yalnız kənardan müşahidə edə bilmərik. Biz dəfələrlə Ermənistana və onun ABŞ Dövlət Departamentindəki himayədarlarına çatdırmışıq ki, buna son qoyulmalıdır. Amma təəssüf ki, bizim səsimiz eşidilmir, Ermənistanın silahlanması prosesi sıçrayışla gedir. Biz bacardığımız qədər orada baş verənləri izləyirik. Ermənistan ərazisinin dərinliyini nəzərə alsaq, texniki baxımdan bu gün bunu etmək o qədər də çətin deyil. Əlbəttə ki, Fransa bu məsələdə liderlik edir"- deyə cənab İlham Əliyev bildirib.

Mövzu ilə bağlı "Unikal"a açıqlama verən sabiq xarici işlər naziri Tofiq Zülfüqarov xatırladıb ki, Azərbaycan Prezidenti İlham Əliyev Makronun dövründə Fransanı, Baydenin dövründə isə ABŞ-ni tənqid edib: "Burada münasibətlərin problemli olmasının birbaşa səbəbi bu administrasiyaların siyasətçiləridir. Bizim Fransa dövlətinə və millətinə olan münasibətimiz illər ərzində formalaşıb. Əgər kimsə bu problemin həll edilməsini istəyirsə, deməli top onların tərəfindədir. Onlar özləri seçim etməlidirlər", - deyə sabiq nazir qeyd edib.

T.Zülfüqarov əlavə edib ki, silahlar məsələsi çox ciddidir: "Bildiyiniz kimi, Azərbaycanın sülh prosesində əsas tələbi bundan ibarətdir ki, Ermənistan rəsmən işğalçı siyasətindən əl çəksin, çünki bu siyasət onların konstitusiyasında və müstəqillik haqqında bəyannamələrində qeyd olunub. Məhz bu şəraitdə Fransanın Ermənistana silahlar göndərməsi və kömək etməsi onu göstərir ki, bu, Azərbaycan üçün real təhlükə təşkil edən məsələdir. Vaxtilə biz eyni məsələyə görə Rusiyanı tənqid edirdik. Belə ki, onlar da Ermənistana silah göndərirdilər və işğal siyasətinin davam etməsi üçün şərait yaradırdılar. Bizim mövqeyimiz isə dəyişməz olaraq qalır. Ermənistan işğalçı siyasətindən əl çəkməsə, onlara hərbi sahədə kömək edən istənilən ölkə Azərbaycana qarşı addım atmış hesab olunacaq. Azərbaycanın bu məsələyə reaksiyası həm siyasi, həm də gələcəkdə hərbi yolla ola bilər. Əgər Azərbaycan hesab etsə ki, bu və digər silahlar vətəndaşlarımıza qarşı hansısa təhlükə yaradır, onları qabaqcıl addımlar ataraq zərərsizləşdirə biləcək".

Milli Məclisin deputatı Sahib Alıyev isə hesab edir ki, Azərbaycan Prezidentinin irəli sürdüyü tezislər bir sıra Qərb dövlətlərinin regionu yenidən qarışdırmaq cəhdlərinin dəqiq qiymətləndirilməsidir: "Azərbaycan Prezidenti cənab İlham Əliyev Makronu, bütövlükdə Fransa siyasi "elitası"nı, öz təbirincə desək, yaxadan asılan Bayden administrasiyasını, ABŞ Dövlət Departamentinin başında duranları və Avropa Birliyini " çiçəklənən bağ", dünyanın digər hissəsini isə "cəngəllik" adlandıran faşist ünsürü- Jozep Borreli heç vaxt belə sərt dillə tənqid etməmişdi. Onun "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova verdiyi intervüdəki həmin açıqlamalar, əslində tənqiddən də çox, haqqında danışılanların Azərbaycana qarşı son 4 ildəki fəaliyyətlərinin, eləcə də dünyada yeritdikləri siyasətin, bizim regionu yenidən qarışdırmaq cəhdlərinin dəqiq qiymətləndirilməsidir və əminəm ki, dövlətinə, millətinə, vətəninə bağlı hər bir soydaşımızın ürəyindəndir".

Siyasi şərhçi Aqşin Kərimov bildirib ki, Fransa Emmanuel Makronun uğursuz siyasəti nəticəsində dünya səhnəsində gücünü itirir. Onun fikrincə, Parisin iddialı təsir rıçaqlarının azalmasında Azərbaycanın da mövqeyi və oynadığı rol danılmazdır: "Azərbaycan Prezidenti cənab İlham Əliyev də bunu diplomatik-siyasi leksikonla qeyd edir. Bu mənada Prezident İlham Əliyevin bəyanatlarını Fransanın qlobal səhnədə və regional tabloda tənəzzülü kontekstində görməliyik. Bakı çalışır ki, Parisin Cənubi Qafqazın dizaynında, təhlükəsizlik konfiqurasiyasında ambisiyalı formada yeri olmasın. Cənab İlham Əliyev Fransaya əslində konstruktiv əməkdaşlıq və qarşılıqlı hörmətə əsaslanan münasibətlər sistemi təklif edir. Parisin bundan imtina edib Ermənistana hərbi-siyasi dəstək göstərəcəyi təqdirdə isə o, Azərbaycanın liderliyi ilə formalaşan regional quruluşlardan və formatlardan kənarda qalacaq. Fransanın nüfuz itkisi təkcə Afrika ilə məhdudlaşmır, ümumilikdə o, elə NATO-nun özündə də etibar edilməyən faktiki status qazanıb. Beləliklə, Azərbaycan NATO ilə əməkdaşlığı dərinləşdirərkən və Cənubi Qafqazın təhlükəsizlik siyasətində dominant mövqedən çıxış edərkən Fransanın xarici siyasət doktrinası daha da parçalanır və o, uğursuzluq uçurumuna yuvarlanır".

Şərhçi sonda onu da qeyd edib ki, Fransa əslində Cənubi Qafqazda fəallıq iddialarını göstərməklə qlobal arenadakı proseslərə bu region üzərindən dərindən qarışmağa çalışır. Onun sözlərinə görə, Fransanın mövqeyi regional eskalasiyaya yönəldiyindən Azərbaycan strateji müttəfiqi Türkiyə və müxtəlif tərəfdaşları ilə Parisin məxfi gündəliyini aşındırmağa nail olur.

***Murad İbrahimli***




# Azərbaycan D-8 təşkilatına üzv seçildi

***19 dekabr 2024-cü il tarixində Misirin paytaxtı Qahirə şəhərində İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) XI Sammiti zamanı Azərbaycan Respublikası yekdilliklə D-8 təşkilatının üzvü seçilib.***

XİN-dən "Unikal"a verilən xəbərə görə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qətiyyətli və uğurlu xarici siyasətinin məntiqi nəticəsi olan D-8-ə üzvlüyümüz təşkilat yarandığı gündən ilk genişlənmə kimi əlamətdardır.

Ölkəmiz ilk dəfə cənab Prezident İlham Əliyevin xüsusi qonaq qismində iştirak etdiyi 2017-ci ildə İstanbulda keçirilmiş IX Zirvə görüşündə təmsil olunub.

Qahirə şəhərində keçirilən XI Sammitdə ölkəmizi Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Üzvlərinin əhalisinin sayının ümumilikdə dünya müsəlmanlarının 60%-ni təşkil edən və böyük iqtisadi potensiala malik "İslam Səkkizliyi" adlanan D-8-ə ölkəmizin üzvlüyü Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun və ölkəmizə olan etimadın bariz nümunəsidir.

Ədaləti və beynəlxalq hüququn norma və prinsiplərini özünün prioritet məqsədi kimi qarşıya qoyan ölkəmiz D-8-in təməl prinsiplərinin qorunmasına, təşkilat çərçivəsində əməkdaşlığın daha da dərinləşməsində mühüm rol oynayacaq.

Bu çərçivədə həmçinin geniş regionumuzda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət, nəqliyyat, kommunikasiya və bir sıra digər vacib istiqamətlərdə əlaqələrin inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Tarix boyu Şərq ilə Qərb arasında körpü rolu oynamış, İslam dünyasının əsas mədəni, dini və sivilizasiya mərkəzlərindən biri olan Azərbaycanın D-8 üzvlüyü eyni zamanda, İslam həmrəyliyinin möhkəmlənməsində, İslam dəyərlərinin dünyada təbliğində və İslamofobiya ilə mübarizə sahəsində böyük töhfə olacaq.

D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı səkkiz müsəlman ölkəni birləşdirir. Təşkilatın təməli Türkiyənin təşəbbüsü ilə 1996-cı il oktyabrın 22-də İstanbulda Banqladeş, İndoneziya, İran, Malayziya, Misir, Nigeriya və Pakistanın əməkdaşlığı ilə təşkil edilən İnkişaf Əməkdaşlıq Konfransında atılıb. 1997-ci il iyunun 15-də İstanbulda 8 ölkənin dövlət və hökumət başçılarının sammitində təşkilat rəsmən elan olunub. Təşkilatın Katibliyi İstanbul şəhərində yerləşir.

45_27 IYUI-QARA.qxd 12/19/2024 9:58 PM Page 5



# Prezident gömrük orqanları ilə bağlı qanunda dəyişiklik etdi



***Prezident İlham Əliyev "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə qanunda dəyişiklik edilməsi qanunu təsdiqləyib.***

"Unikal" xəbər verir ki, dəyişikliyə əsasən, bundan sonra sınaq müddəti müəyyən edilmiş şəxslər gömrük orqanlarında müvafiq vəzifəyə xüsusi rütbə verilmədən təyin olunacaq və onlar həmin müddət ərzində yalnız vəzifə maaşı alacaqlar.

Bundan başqa, gömrük orqanlarında xidmətə qəbul zamanı rəhbər vəzifələrə təyin olunanlara və elmi dərəcəsi olan şəxslərə sınaq müddəti müəyyən edilməyəcək, həmin şəxslər müvafiq vəzifəyə təyin olunmaqla, gömrük orqanlarında daimi qulluğa qəbul edəcəklər.

Eyni zamanda, gömrük orqanlarının sərəncamında olan (intizam tənbehi qaydasında vəzifədən azad edilərək sərəncamda olan işçilər istisna olmaqla), həmçinin barəsində cinayət işi başlanmış və ya xidməti intizamın pozulması ilə əlaqədar xidməti araşdırma aparılan işçi vəzifəyə təyin olunduqda, ibtidai istintaqda cinayət işinin icraatına bəraətverici əsaslarla xitam verildikdə və ya məhkəmənin hökmü ilə bəraət aldıqda, yaxud xidməti araşdırma nəticəsində müsbət rəy aldıqda onun növbəti xüsusi rütbə alması üçün xidmət müddəti əvvəlki xüsusi rütbədə xidmət müddətinin bitdiyi vaxtdan başlanaraq hesablanacaq.

# Bu halda gömrük işçilərinə xüsusi rütbələr verilməyəcək

***İntizam tənbehi verilən gömrük işçilərinə tənbeh götürülənə qədər xüsusi rütbələr verilməyəcək.***

"Unikal" xəbər verir ki, bu, Prezident İlham Əliyevin tətbiqi barədə Fərman imzaladığı Gömrük orqanlarında xidmət haqqında Əsasnaməyə dəyişiklikdə əksini tapıb.

İndiyə qədər qüvvədə olan qanuna əsasən, barəsində cinayət işi qaldırılan və ya xidməti intizamın pozulması ilə əlaqədar xidməti araşdırma aparılan gömrük orqanlarının vəzifəli şəxslərinə növbəti xüsusi rütbə müvafiq olaraq cinayət işinə bəraət qazandıran əsaslarla xitam verilənə və ya xidməti araşdırma qurtarana qədər verilmir.

Yeni qanuna əsasən, gömrük orqanlarının sərəncamında olan, yaxud intizam tənbehi verilmiş, həmçinin barələrində cinayət işi başlanmış və ya xidməti intizamın pozulması ilə əlaqədar xidməti araşdırma aparılan işçilər vəzifəyə təyin olunana, intizam tənbehi götürülənə, ibtidai istintaqda cinayət işinin icraatına bəraətverici əsaslarla xitam verilənə və ya məhkəmənin hökmü ilə bəraət alanadək, yaxud xidməti araşdırma qurtaranadək növbəti xüsusi rütbələrə təqdim edilməyəcəklər.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5"
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

# Ceyhun Bayramov Fidanla müzakirə apardı

***Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Qahirədə D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının 11-ci Zirvə görüşü çərçivəsində türkiyəli həmkarı Hakan Fidanla görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyindən bildirilib.

H.Fidan Azərbaycanın inkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatına (D-8) üzv seçilməsi münasibətilə təbriklərini çatdırıb.

Görüşdə iki ölkə arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərindən irəli gələn məsələlər, Suriyada cari vəziyyət və ölkələr arasında mümkün əməkdaşlıq sahələri, eləcə də Suriyada humanitar yardım istiqamətində planlar müzakirə edilib.

# Azərbaycanda yeni mərkəz yaradıldı - FƏRMAN

***Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Balıqçılıq və Akvakultura Mərkəzi publik hüquqi şəxs yaradılıb.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev Azərbaycanda balıqçılığın və akvakulturanın inkişafı ilə bağlı əlavə tədbirlər və bununla əlaqədar bəzi fərmanda və sərəncamlarda dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

Mərkəz Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində balıqçılığın, o cümlədən akvakulturanın təşkili, idarə edilməsi, balıq və digər su bioresurslarının artırılması, istifadəsi, mühafizəsi və onlara nəzarət sahəsində fəaliyyət göstərən publik hüquqi şəxs kimi fəaliyyət göstərəcək.

Mərkəzin nizamnamə fondu 1 milyon manat təşkil edəcək və dövlət büdcəsinin vəsaiti hesabına formalaşacaq.

# Əli Əsədov: "Azərbaycan sülh gündəliyinə sadiqdir"

***Azərbaycan 30 ilə yaxın davam edən erməni işğalına son qoyaraq, öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa edib.***

"Unikal" xəbər verir ki, bunu Baş nazir Əli Əsədov Qahirədə D-8 11-ci Zirvə görüşündə deyib. Baş nazir bildirib ki, Ermənistan işğal etdiyi torpaqlarımızda azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirib, bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün olub: "Ərazilərimizdə urbisid, kultursid və ekosid törədilib. Azərbaycan xalqının mədəni və dini irsi məhv edilib. O ərazilərdə yerləşən 67 məsciddən 65-i yerlə-yeksan edilib. Hazırda isə bu torpaqlarda genişmiqyaslı bərpa-quruculuq işləri aparılır, kəndlər və şəhərlər tamamilə yenidən qurulur. Artıq minlərlə keçmiş məcburi köçkün öz dədə-baba yurdlarına qayıdıb. Yeni reallıqlar regionda davamlı sülh və sabitlik, həmçinin qarşılıqlı faydalı əməkdaşlıq üçün unikal imkanlar açır.



Azərbaycan regional sülh gündəliyinə sadiqdir və bu istiqamətdə qəti addımlarını davam etdirəcək".

Əli Əsədov onu da qeyd edib ki, Müsəlman ölkələri ilə dostluq və qardaşlıq əlaqələrinə malik Azərbaycan bundan sonra da İslam həmrəyliyinin möhkəmlənməsinə öz dəyərli töhfəsini verəcək.

Baş nazir bildirib ki, "2020-2030-cu illər üzrə yol xəritəsi" və gələcəkdə qəbul olunacaq strategiyalar D-8 ölkələri arasında əməkdaşlığı inkişaf etdirməklə yanaşı, dəyişən dünya kontekstində mövcud beynəlxalq mexanizmlərin yenidən nəzərdən keçirilməsinə xidmət edəcək: "Bir daha ölkəmizin D-8-ə üzv seçilməsi ilə bağlı verilən qərara görə hər birinizə təşəkkür edirik".

Ə.Əsədov deyib ki, Suriyada Əsəd rejiminin süqutundan sonra ölkədə sülhün və sabitliyin bərpa olunması və vətəndaş qarşıdurmasına son qoyulması mütləq dərəcədə vacibdir.

Baş nazir bildirib ki, Azərbaycan Suriyanın ərazi bütövlüyü və suverenliyinə dəstəyini bir daha ifadə edir: "Ümidvarıq ki, bütün məsələlər Suriya xalqının iradəsinə uyğun şəkildə və ölkədaxili siyasi dialoq vasitəsilə həll olunacaq. Azərbaycan Suriya xalqının üzləşdiyi humanitar problemlərin aradan qaldırılmasında öz dəstəyini əsirgəməyəcək. Bu istiqamətdə praktiki addımların atılması istiqamətində qardaş Türkiyə ilə yaxın təmasları davam etdirirk".

# Azərbaycan -Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclası keçirilib

***Türkiyənin Ankara şəhərində 16-cı Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclası keçirilib.***

Müdafiə Nazirliyindən verilən xəbərə əsasən, tədbirdə Azərbaycanı müdafiə nazirinin müavini - Baş direktor Aqil Qurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib. Baş direktor A.Qurbanov Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Güler, Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Metin Gürak ilə görüşüb.

Görüşlərdə mövcud dostluq və qardaşlıq münasibətlərinin hərbi əməkdaşlığa müsbət təsiri xüsusi qeyd edilib, icra olunan qarşılıqlı fəaliyyətlərin bundan sonra da intensivləşəcəyinə əminlik ifadə olunub.

Səfər zamanı iki ölkə arasında hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın perspektivləri, inkişaf istiqamətləri, eləcə də qarşılıqlı maraq doğuran mövzulara dair geniş müzakirələr aparılıb. Sonra nümayəndə



heyətlərinin iştirakı ilə Yüksək Səviyyəli Hərbi Dialoq İclasının açılış mərasimi olub, həmçinin Alt İşçi Qrupların iclasları keçirilib.

# Bu şəxslərə maaşının 6 misli məbləğində birdəfəlik müavinət veriləcək

***Öz arzusu ilə işdən çıxma barədə yazılı ərizə verdiyinə görə ədliyyə orqanlarında qulluq keçməsinə xitam verilmiş ədliyyə orqanı işçisinə vəzifə maaşının 6 misli məbləğində birdəfəlik müavinət veriləcək.***

"Unikal" xəbər verir ki, bu, Prezident İlham Əliyevin tətbiqi barədə Fərman imzaladığı "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" qanuna dəyişiklikdə əksini tapıb.



45_27 IYUl-QARA.qxd 12/19/2024 9:58 PM Page 6



# Azərbaycan XİN-dən ABŞ-ya və Fransaya cavab

***Hökumətin uğursuzluğunu ört-basdır etmək, uğursuz dövlətin göstəricilərindəndir.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə Fransanın Azərbaycandakı səfiri Ann Buayona cavabında deyib. O qeyd edib ki, Fransanın xarici siyasətinin uğurlarının viza müraciətlərinin sayı ilə ölçülməsi görünür ki, yeni üsuldur: "Amma bir daha bu strategiyanın doğru faktları əks etdirməməsi yanlış təhlildən və səhv xarici siyasətdən xəbər verir. Xanım səfirə yaxşı məlumdur ki, Fransanın Bakıdakı Səfirliyi yalnız Fransaya səfər üçün viza vermir".



A.Hacızadə vurğulayıb ki, real göstəricisi isə əslində budur: "Fransanın ölkəmizə qarşı qərəzli siyasətinə və bu ilin sentyabr ayından etibarən verilən səyahət xəbərdarlığına baxmayaraq, ölkəmizə səyahət üçün ötən ilin eyni dövrü ilə müqayisədə Fransa vətəndaşlarının müraciətləri daha da artıb (2023-cü ilin sentyabrı 536, oktyabrı 467, 2024-cü ilin sentyabrı 562 nəfər, oktyabrda isə 605 nəfər)".

Ayxan Hacızadə, həmçinin ABŞ-nin Azərbaycandakı Səfirliyinə də cavab verib: "Unutmayaq ki, əsl "namərdlik" ABŞ-nin "məşhur, dürüst və qərəzsiz" kimi təqdim edilən qurumları tərəfindən yalanın həqiqət kimi göstərilməsi və sırf geosiyasi məqsədlər üçün insan hüquqlarından bəhanə kimi istifadə olunmasıdır. Özünü beynəlxalq səviyyədə insan hüquqlarının müdafiəçisi kimi qələmə verən və bir çox insan hüquqlarını heçə sayan ABŞ tərəfindən Azərbaycana qarşı əsassız iddialar ikili standartların bariz nümunəsidir. Tənqid təzyiq kimi o zaman effektli ola bilər ki, tənqid edənin niyyəti saf, əxlaqı isə üstün olsun. Keçmişdəki səhvlərdən dərs çıxarmaq gələcək uğurlu addımlar üçün əsas şərtdir".

# COP29-a qarşı hibrid hücumlara dair hesabat hazırlanıb

***2023-cü il dekabrın 11-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP29) Azərbaycanda keçirilməsi qərarı verildiyi gündən ölkəmizə qarşı informasiya əməliyyatları kəskin hal alıb.***




"Unikal"ın xəbərinə görə, bu barədə Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyasından bildirilib.

Qeyd edilib ki, kampaniyanın getdikcə əlaqələndirilmiş formada aparılaraq kütləviləşməsi səbəbindən Milli Məclisin sədrinin tapşırığı ilə Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyası öz səlahiyyətləri çərçivəsində araşdırmalara başlayıb.

Araşdırmaların nəticəsi olaraq, oktyabrın 21-də "COP29-a qarşı hibrid təhdidlər" mövzusunda Milli Məclisin deputatlarının, vətəndaş cəmiyyəti nümayəndələrinin, beyin mərkəzləri təmsilçilərinin, hibrid təhdidlər və kibertəhlükəsizlik üzrə ekspertlərin iştirakı ilə ictimai müzakirə keçirildi və məsələ ətrafında geniş fikir mübadiləsi aparılıb:

"Qısa müddət sonra isə həmin müzakirənin yekunları və açıq mənbələrdən əldə edilən məlumatların təhlili əsasında 2024-cü ilin noyabrında Azərbaycan və ingilis dillərində "COP29-a qarşı hibrid hücumlar: Cəmiyyətimiz hibrid təhdidlərin qurbanı olmamalıdır!" adlı xüsusi hesabat hazırlandı.

Burada Azərbaycana qarşı istifadə olunan hibrid təhdidlərin dezinformasiya, habelə hüquq və müharibə terminlərinin kombinasiyasından yaranmış "Lawfare" növləri barədə söz açılır, onların haradan və kimlər vasitəsilə təşkil olunduğu sübuta yetirilir. Həmçinin bəzi ölkələrin bu hibrid hücumları təşkil edərkən beynəlxalq hüququn norma və prinsiplərindən yayınmaq məqsədilə istifadə etdikləri mexanizmlər göstərilir.

Hesabatda hibrid hücum alətləri kimi istifadə olunan parlamentlər və müəyyən dövlətlərin maliyyə və siyasi dəstəyi əsasında konkret sifarişlər yerinə yetirən bir sıra beynəlxalq insan hüquqları təşkilatları barədə də söz açılır.

Eyni zamanda, onların maliyyələşmə mexanizmləri və idarəçiliyindəki şəxslərin tərəfsiz olmadıqları, müəyyən qrupları, habelə Ermənistanın və dünya erməniliyinin maraqlarını təmsil etdikləri müəyyən edilir. Bununla yanaşı, bir sıra parlamentarilərin, iri media qurumlarının qeyd edilən "insan hüquqları" təşkilatları və erməni lobbisi ilə koordinasiya edilmiş fəaliyyətinə nəzər salınır, kampaniyaların aparılma forması ilə bağlı nümunələr göstərilir.

Hesabatda ölkəmizə qarşı ənənəvi düşmənçilik edən və anti-COP29 kampaniyasında fəal iştirak edən erməni lobbi təşkilatlarının, zəngin diaspor ermənilərinin və Ermənistan Respublikası rəsmilərinin fəaliyyətlərinə də geniş yer ayrılır.

Yekunda son aylarda COP29-a qarşı istifadə olunan sosial media kampaniyaları, həştəqlər təhlil edilir və ümumilikdə dünya mediasının tədbirə marağı ilə bağlı statistik rəqəmlər təqdim olunur.

Beynəlxalq ictimaiyyətin məlumatlandırılması baxımından, qeyd olunan xüsusi hesabatın dost və tərəfdaş ölkələrin parlamentlərinə göndərilməsi də nəzərdə tutulur".

# Qərbi Azərbaycan İcması ABŞ səfirliyini qınadı - Bəyanat

***ABŞ-nin Azərbaycandakı səfirliyinin ölkəmizin daxili işlərinə qarışan və böhtan dolu bəyanatını sərt şəkildə qınayırıq.***

"Unikal" xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında deyilir.

"Azərbaycana qarşı şər kampaniyasını ölkəmizdə guya söz azadlığı sahəsində olan problemlərin olması ilə izah etməyə cəhd edən ABŞ səfirliyinin diqqətinə çatdırmaq istərdik ki, bu təzyiqlərin əsl səbəbi Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsidir", - məlumatda vurğulanıb.

Qeyd edilir ki, ABŞ-nin hazırkı administrasiyası azərbaycanlılara qarşı etnik və dini əsaslarla ayrı-seçkilik siyasəti aparmaqla, ölkələrin ərazi bütövlüyü və suverenliyinə selektiv yanaşmaqla, Ermənistanın deportasiya, etnik təmizləmə, təcavüz və işğal siyasətinə dəstək verməklə insan hüquqlarından danışmaq haqqını itirmişdir.

"Biz Qərbi Azərbaycan İcması olaraq bu ədalətsiz yanaşmanı, ayrı-seçkiliyi daim hiss edirik.

Bundan əlavə, ABŞ səfirliyinin özlərinə gəldikdə nəinki azacıq tənqidə, hətta adi suala belə aqressiv ritorika ilə cavab verməsi onların yeri gəldi-gəlmədi pafosla danışdıqları "söz azadlığı"na, "fikir müxtəlifliyi"nə olan namərdliyini göstərir.

Biz ABŞ-nin hazırkı administrasiyasından ölkəmizin daxili işlərinə müdaxiləsinə, xalqımıza qarşı ayrı-seçkiliyinə və insan hüquqlarından siyasi məqsədlər üçün sui-istifadəsinə son verməyi tələb edirik", - bəyanatda bildirilir.

# "Markerlərin sayı çox olsaydı, yazıların yoxlanması daha tez olardı" - Məleykə Abbaszadə



***Bizə çox zaman sual verirlər ki, yazı işləri nə üçün gec yoxlanılır? Markerlərin sayı 5 min, 10 min olsaydı, yoxlama prosesi daha tez olardı. Təəssüflər olsun ki, bu sahədə də mütəxəssis çatışmazlığını hiss edirik. Biz markerlərin hazırlanmasına hələ 2017-ci ildən başlasaq da, bu sahədə mütəxəssislərə ehtiyac duyuruq. Həm markerlər, həm də qiymətləndirmə ilə, psixrometrik testlərlə məşğul olan mütəxəssislərə bizdə ehtiyac çoxdur.***

"Unikal" xəbər verir ki, bunu Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə jurnalistlərə müsahibəsində deyib. O bildirib ki, Dövlət İmtahan Mərkəzi qiymətləndirmə prosesi, psixometriya sahələri üzrə 3 aylıq proqrama başlayıb. Gənclər bu proqramda iştirak edərək yeni peşə qazana bilərlər: "Mən fürsətdən istifadə edərək, həm təhsil sahəsində oxuyanlara, o cümlədən magistraturanın sonuncu kurs tələbələrinə, riyaziyyat, informatika, statistika sahələrində oxuyan gənclərə müraciət edərək demək istəyirəm ki, onlar Dövlət İmtahan Mərkəzinin proqramına qoşularaq yeni bir peşə əldə edə bilərlər. Sonra, təbii ki, onlar bu sahədə bizlə işləyə bilərlər. Onu da deyim ki, əmək bazarında kifayət qədər belə mütəxəssislərə tələbat var".

# Mərkəzi Bankdan 6 sığorta şirkətinə məcburi göstəriş

***Azərbaycan Mərkəzi Bankı (AMB) 6 sığorta şirkətinə məcburi göstəriş verib.***

"Unikal" AMB-yə istinadən xəbər verir ki, bunlar "AzSığorta", "İpək Yolu Sığorta", "Aqrar Sığorta Müştərək Sığorta Şirkəti", "Xalq Həyat", "Atəşgah Həyat" və "AzRe Təkrarsığorta" şirkətləridir. AMB qeyd edib ki, həyata keçirilən araşdırmalar və sığorta bazarının ümumi monitorinqi zamanı sözügedən sığorta şirkətlərinin "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununda müəyyən edilmiş sığortaçılarda korporativ idarəetmə ilə bağlı tələblərinin təmin edilməsi məqsədilə Qanunun 102.2.8-1-ci maddəsinə əsasən icrası məcburi göstəriş verilib.



## Kərəm Mustafayevin niyə dindirildiyi məlum oldu

***Naxçıvanda itkin düşdükdən sonra nəşi tapılan əsgər Ceyhun Hüseynovun ölümü ilə bağlı iki general məhkəməyə çağırılır.***

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, bunlar müdafiə nazirinin sabiq müavini-Əlahiddə Ümumqoşun ordunun eks-komandanı general-polkovnik Kərəm Mustafayev və onun müavini işləmiş general-mayor Rəhim Cəfərovdur.

Generalların Ceyhunun komandiri olmuş polkovnik Samir Həziyev və hərbi hissənin Tibb Xidməti rəisi Aydın Quliyevin işi üzrə ifadə verməli istənilir. Bu barədə vəsatəti sözügedən şəxslərin vəkilləri qaldırıblar.

Müdafiə tərəfi hesab edir ki, K.Mustafayev və müavini də şahid kimi hakim qarşısına çıxmalıdır. Vəsatətdən məlum olub ki, general-polkovnik Kərəm Mustafayev bu cinayətə görə Respublika Hərbi Prokurorluğunda iki gün dindirilib.

Bu yerdə qeyd edək ki, həmin vaxtlarda bu barədə saytımızda məlumat vermişdik. Amma K.Mustafayevin nəyə görə prokurorluğa çağırıldığı bilinmirdi. Bu gün onun sözügedən cinayətə görə sorğu-sual edildiyi təsdiqini tapıb.

Məhkəmə Kərəm Mustafayevin məhkəməyə çağırılması məsələsini hələ ki, açıq saxlayıb, Rəhim Cəfərovun dindirilməsi ilə bağlı vəsatət isə təmin edilib. General növbəti iclaslarda hakim qarşısında dayanacaq.

Qeyd edək ki, Kərəm Mustafayev elə bu hadisədən bir müddət sonra vəzifəsindən azad edilib.

## Bələdiyyə seçkilərində qeydə alınan namizədlərin sayı açıqlandı

***Bələdiyyə seçkiləri ilə əlaqədar 6872 nəfərin namizədliyi irəli sürülüb.***

Bu sözləri jurnalistlərə açıqlamasında Mərkəzi Seçki Komissiyası (MSK) sədrinin müavini Rövzət Qasımov söyləyib.

O bildirib ki, namizədliyi irəli sürülən təqribən 3800 nəfər imza vərəqəsi alıb və artıq onlardan 1053-ü imza vərəqələrini dairə seçki komissiyalarına geri qaytarıb. 350-yə yaxın nəfərin isə namizədliyi qeyd alınıb.

Rövzət Qasımov əlavə edib ki, bələdiyyə seçkiləri ilə bağlı müraciət edən iddiaçılardan təqribən 3500-ə yaxını 21-35 yaş aralığındadır. Onlar passiv seçki hüququna malik vətəndaşlarımızı əhatə edir. Bu da o deməkdir ki, gənclərin seçkiyə marağı kifayət qədər yüksəkdir.

# "Azərbaycan bu məsələyə sakitliklə baxa bilməz"

## Aydın Mirzəzadə: "Bu silahları Ermənistan ya hədiyyə, ya da kreditlə alır ki, bu da Azərbaycan tərəfində suallar doğurur"

***Milli Məclisin deputatı Aydın Mirzəzadə "Unikal"a müsahibə verib. O, Prezident İlham Əliyevin "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibəsində qeyd etdiyi məsələlər ətrafında fikirlərini bölüşüb. Eyni zamanda Ermənistanın sürətlə silahlandırılmasından, işğal dövründə ölkəmizə vurduqları ziyandan və başqa məsələlərdən danışıb.***

***-Aydın müəllim, Prezident İlham Əliyev məlum müsahibəsində Ermənistanla sülh müqaviləsinin imzalanmasının şərtlərini açıqlayıb. Belə ki, Ermənistan Azərbaycanla sülh müqaviləsi imzalamazdan əvvəl konstitusiyanı dəyişməli və ATƏT-in Minsk qrupunun ləğvinə razılıq verməlidir. Necə düşünürsüz, növbəti ildə bu məsələlər öz həllini tapacaq?***



-Əvvəldən Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi layihəsinin 17 bəndindən 15-nin razılaşdırıldığı, ikisinin üzərində iş getdiyi barədə məlumat verilmişdi. İctimaiyyəti bu iki bəndin nə olması barədə suallar düşündürürdü. Şübhəsiz, burada Azərbaycan üçün olduqca önəmli olan milli maraqlarımıza aid olan məsələlər durur. Cənab Prezident həmin iki bəndi açıqladı. Bildirdi ki, birincisi, ATƏT-in Minsk qrupu ləğv edilməlidir. ATƏT-in Minsk qrupu 1992-ci ildə Ermənistanın Azərbaycana qarşı hərbi əməliyyatlarından sonra yaranmış vəziyyəti həll etmək üçün yaradılmışdı. Böyük səlahiyyətlərinə, üç böyük dövlətin həmsədrliyinə baxmayaraq, Minsk qrupu problemin həlli üçün heç nə etmədi. Azərbaycan öz gücü ilə keçmiş Dağlıq Qarabağ problemini həll etdi. Bu gün xaricdə müəyyən dairələr, o cümlədən Ermənistan Minsk qrupunu yenidən diriltməyə, ona hüquqi status verməyə çalışır. Burada söhbət Azərbaycan-Ermənistan münasibətlərinin yaxşılaşmasından, regionda sülh, stabillik atmosferinin yaranmasından getmir. Söhbət Azərbaycan üçün bundan sonra onilliklərlə problem yaradacaq məsələləri gündəliyə gətirmək cəhdindən gedir. Azərbaycan dəfələrlə Minsk qrupunun ləğv edilməsi təşəbbüsünü irəli sürüb. İndi də sülh müqaviləsinin bağlanması üçün hər iki tərəf həmin qrupun ləğv edilməsi ilə bağlı ATƏT-ə müraciət etməlidir. Ermənistan dəfələrlə Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyıb. İkinci şərt isə Ermənistan konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünü şübhə altına alan bəndin dəyişdirilməsidir. Ermənistan konstitusiyasında müstəqillik aktına istinad edilir. Müstəqillik aktında isə Azərbaycanın keçmiş Dağlıq Qarabağ vilayətinin Ermənistana birləşdirilməsi haqqında parlamentin qərarı təsbit edilir. Ermənistan konstitusiyasının Azərbaycan əleyhinə yönəlmədiyini bildirsə də, belə qeyri-müəyyən vəziyyətin saxlanılması gələcəkdə Azərbaycan üçün böyük problemlər yarada bilər. Eyni zamanda, sülh bağlamaq istədiyimiz ölkənin konstitusiyası dolayısı ilə də olsa Azərbaycanın bir hissəsini öz ərazisi hesab edirsə, bu artıq sülh yox, Ermənistanın Azərbaycana qarşı ərazi iddiası müqaviləsi olardı. Digər məsələlər var ki, Cənab Prezident bildirdi ki, sonradan gələcək münasibətlərdə öz əksini tapacaq. Prezidentin sülh müqaviləsi ilə bağlı dedikləri onu deməyə əsas verir ki, Azərbaycan belə vacib sənədi imzalamaqda israrlıdır. Ancaq tələsik və bizim maraqlarımızın şübhə altına alınması şərti ilə edilə bilməz.

***-Dövlət başçısı bildirib ki, Makron hökumətinin Ermənistana tədarük etdiyi silahlar hücum silahlarıdır, öldürücüdür və Azərbaycan üçün praktiki təhlükə yaradır. Ermənistan tərəfi bu silahlanma ilə növbəti təxribata cəhd edərsə, nələrin şahidi ola bilərik?***

-Cənab Prezident müsahibəsində bu məsələ ilə bağlı çox ciddi mesaj verdi. Bildirdi ki, sonradan Azərbaycana irad bildirilməsin. Ermənistana öldürücü və hücum silahları verilir. Ermənistan dörd dövlətlə sərhəddir. Bunların hansına qarşı o silahları istifadə edəcəyi heç kəsdə sual doğurmur. Bu silahları Ermənistan ya hədiyyə, ya da kreditlə alır ki, bu da Azərbaycanda suallar doğurur. Fransa, Hindistan, son dövrlərdə isə ABŞ Ermənistanı silahlandırmaqda davam edir. Kiçik ərazisi, günü-gündən azalan əhalisi olan ölkənin bu silahların nəyinə lazım olduğu aydın olmur. Azərbaycan bu məsələyə sakitliklə baxa bilməz. Silahlanmağa, yeni silahlar almağa məcburdur. Bizim hərbi büdcəmiz artıq rekord həddə - 5 milyard ABŞ dollarına gəlib çatıb. Əlbəttə, Ermənistan silahlanmadan əl çəksə, Azərbaycana qarşı həqiqətən sülh münasibətini ortaya qoysa idi, hər iki ölkə hərbi büdcəyə xeyli qənaət edərdi. Bununla belə Azərbaycan Prezidenti bildirdi ki, Ermənistan silahlanmada Azərbaycanla yarışa girə bilməz. Ermənistanın təhdidlərinə həmişə Azərbaycanın istənilən səviyyədə cavab vermək haqq və imkanı vardır. Cənab Prezidentin müsahibəsindəki bu mesajlar kifayət qədər aydındır. Azərbaycana qarşı çirkin planlar quran dairələr bundan nəticə çıxarmalıdırlar.

***-Azərbaycan lideri Ermənistanın işğal dövründə ölkəmizə vurduğu zərərin 150 milyard dollardan çox olduğunu söyləyib. Qarşı tərəfin vurduğu ziyanın ödənilməsi üçün hansı addımlar atıla bilər?***

-Azərbaycana Ermənistanın işğalı nəticəsində vurulan ziyanın hesablanması çox mürəkkəb və ciddi analiz aparılması tələb edilən iş idi. Dörd il ərzində bu iş aparıldı və onun 150 milyard dollara bərabər olduğu qənaətinə gəlindi. Bu, hətta inkişaf etmiş, ümumi daxili məhsulu trilyon və trilyardlarla ölçülən ölkələr üçün də çox böyük rəqəmdir. Azərbaycan beynəlxalq təşkilatlar qarşısında vaxtaşırı bu zərərin Ermənistan tərəfindən vurulması ilə bağlı işlər apardı. Cənab Prezident müsahibəsində qarşılıqlı surətdə iddiaların geri götürülməsi məsələsinə toxundu. Bu baxımdan Ermənistan bilməlidir ki, Azərbaycanın Ermənistana qarşı 150 milyardlıq iddiası ciddi surətdə hesablanmış və heç bir şübhə doğurmayan nəticədir. Ermənistan Azərbaycanla heç bir sahədə yarışa girməyə cəhd etməsin. Bunun cavabı çox dəqiq şəkildə Azərbaycan tərəfindən verilə bilər.

***-Müsahibə zamanı Azərbaycanda Türkiyənin hərbi bazasına ehtiyac olub-olmaması ilə bağlı sual verildi. Sizcə, belə bir hərbi bazanın olmasına ehtiyac varmı?***

-Hesab edirəm ki, Azərbaycanda Türkiyənin hərbi bazasının yaradılması sualı əslində siyasi təxribat xarakterlidir. O baxımdan ki, Azərbaycanda xarici hərbi bazanın olması ilə bağlı ittiham etmək üçün əllərində bir əsas axtarırlar. Amma Azərbaycan Prezidenti bildirdi ki, buna ehtiyac yoxdur. Birincisi, Azərbaycan Qoşulmama Hərəkatının üzvüdür. İkincisi, bu gün hardasa, hansısa bir hərbi bazanı gizlətmək qeyri-mümkün olan məsələdir. Azərbaycanla Türkiyənin hərbi müttəfiqliyi və əməkdaşlığı var. Hərbi bazaya isə qətiyyən ehtiyac yoxdur. Bizim müttəfiqlik müqaviləmizə görə ehtiyac yarandıqda hər iki ölkə bir-birinin köməyinə gələ bilər. Azərbaycan üçün ən böyük məsələlərdən biri Ermənistanın işğal etdiyi əraziləri azad etmək idi. Azərbaycan öz gücü ilə bu problemi həll etdi. Bu gün ərazi bütövlüyünü, suverenliyini ən yüksək səviyyədə, o cümlədən güclü hərbi qüdrəti ilə həyata keçirir. Bu baxımdan Azərbaycanın ərazisində xarici hərbi bazaya, o cümlədən Türkiyənin hərbi bazasına ehtiyac yoxdur. Bizim əməkdaşlığımız, dostluğumuz davam edir. Bu, bütün sahələrdə, həmçinin hərbi sahədə də ən müasir tələblərə cavab verir. Əməkdaşlığımız bundan sonra da ikitərəfli münasibətlərdə aparıcı sahələrdən biri olacaq.

***Anar Kəlbiyev***

***Bu günlərdə Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev pensiyalarla bağlı diqqətçəkən rəqəmlər səsləndirib. Onun dediyinə görə, Azərbaycan pensiyaçılarının pensiyada olma müddəti 14,8 ildir. Sitat: "Bu özü göstərir ki, bizim pensiya sistemimiz sosialyönümlüdür. 57% yaşa görə pensiyaçılarımız 12 ildən artıq pensiya alır. Amma biz hər zaman qeyd edirik ki, pensiya sistemi dayanıqlı olmalıdır".***

rə, Azərbaycanda ötən il ərzində 60 810 nəfər vəfat edib. Dünyasını dəyişənlərin 33 157 nəfərini kişilər, 27 653 nəfərini isə qadınlar təşkil edib. Kişilərin 47,8%-i və ya 15 min 872 nəfəri 65 yaşına, yəni pensiya yaşına çatmadan ölüb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin oktyabr ayına olan məlumatına görə, ölkədə 188 600 nəfərdən çox şəxsə ailə başçısını itirdiyinə görə müavinət ödənilir. Dolayısı ilə bu müavinət övladları 18 yaşa çatmadan vəfat edən valideynlərin təxmini sayını göstərir.

ramlının bir müddət əvvəl mediaya açıqlamasında haqlı olaraq vurğuladığı kimi, ölkədə kişilərin təxminən yarısının pensiya yaşına çatmadan vəfat etməsi ciddi siqnaldır: "Əhalinin, xüsusən də kişilərin yarıya yaxını pensiya ala bilmir. Faktiki olaraq dövlət uzun illərdir insanlardan sosial sığorta haqqı tutur, amma insanların yarısı o pulu ala bilmir. Halbuki o vəsait həmin şəxsin qanuni puludur". Yəni Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin bu mövzuda nə deməsindən asılı olmayaraq ortada ciddi

# Sahil Babayev yenə də tənqid hədəfində

## Həftənin sualı: nazirin çıxışları cəmiyyətdə hər dəfə niyə qıcıqla qarşılanır?



Nazirin təqdim etdiyi rəqəmlərdən belə məlum olur ki, Azərbaycanda orta ömür 80 yaşa çatır (65+14.8= 79.8). Yəni 65 yaşda pensiyaya çıxmış vətəndaş orta hesabla 15 ilə yaxın pensiya və ya müavinət alır. Halbuki Dövlət Statistika Komitəsi (DSK) 2022-ci ilin sonuna əhali statistikasıyla bağlı bilgiləri əks etdirən hesabatında Azərbaycanda gözlənilən ömür uzunluğunu 73.6 il hesablayıb. Ayrıca götürdükdə isə qadınların gözlənilən orta ömür uzunluğu 76 yaşa, kişilərdə isə 71 yaşa bərabərdir.

Sahil Babayevin dediklərindən belə çıxır ki, ölkədə orta ömür rəsmi statistika qurumunun dediyi kimi yox, ondan 5-6 il daha uzundur.

"Azpolitika.info" mövzu ilə bağlı maraqlı bir məqama diqqət çəkib: nazirin öz səsləndirdiyi bu rəqəmləri hansı mənbələrdən götürdüyü məlum deyil. Lakin istənilən halda Azərbaycanda vətəndaşın 14.8 il pensiya ömürünün olması reallıqla örtüşmür. Bunu başqa statistik məlumatlar da təsdiqləyir. Məsələn, DSK-nin məlumatına görə,

Şübhəsiz ki, Azərbaycanda 14.8 il və daha artıq müddətdə pensiya alanlar da var, lakin bələlərinin sayı ümumi nisbətdə çətin ki, 10 faizi keçsin. Əgər Sahil müəllim əksini düşünürsə, onda yaxşı olardı ki, rəhbərlik etdiyi nazirlik konkret rəqəmlər açıqlasın. Çünki media və ekspertlərin həmin rəqəmlərə alçatanlığı təəssüf ki, yox dərəcəsindədir.

Hər halda fakt faktlığında qalır: statistik məlumatlara əsasən, ölkəmizdə il ərzində vəfat edənlərin xeyli hissəsi pensiya yaşına ümumiyyətlə çatmayanlardır. Digər önəmli hissəni isə pensiyaya çıxdıqdan qısa müddət sonra dünyasını dəyişənlər təşkil edir. Bu isə onların pensiya kapitalı ilə bağlı haqlı narazılıqlar, eyni zamanda ciddi suallar doğurur. Hərçənd, Sahil müəllimin bu mövzuda da maraqlı məntiqi var. Sitat: ""Sosial sığorta alan şəxslərə ödədikləri sosial sığortaya əsasən pensiya versəydik, onlar 110 manatdan yuxarı pensiya almazdılar... Bu gün bizim pensiya sistemimiz çox humanistdir..."

Halbuki sosioloq Elçin Bayboşluq və həmin boşluqdan doğan haqsızlıq var. Belədə Sahil müəllimin cəmiyyətdə daha çox qıcıq doğuran, narazılıq yaradan açıqlamaları nəyə lazımdır axı?!

Digər tərəfdən, iqtisadçılar sözügedən mövzuda müxtəlif maraqlı təkliflər səsləndirirlər. Məsələn, həmin təkliflərdən biri belədir: Azərbaycanda orta pensiya müddəti 12 il təyin edilibsə, vətəndaş pensiya yaşı tamam olmadan, yaxud pensiyaya çıxdıqdan bir müddət sonra vəfat edirsə, toplanan məbləğin varisinin kapitalına keçməsi uyğun olardı. Bu, pensiya yığımına marağın artmasına, bütövlükdə məşğulluğun şəffaflığının artmasına gətirib çıxarardı.

Ancaq təəssüf ki, Sahil müəllim belə təklifləri dinləmək əvəzinə mücərrəd, eyni zamanda populist fikirlər səsləndirməklə, çıxışlar etməklə işini bitmiş sayır. Nəticədə isə vətəndaşın gileyi yalnız ona və rəhbərlik etdiyi nazirliyə yox, ümumilikdə hökumətə yönəlir. Görəsən, buna ehtiyac varmı?!

***Sənan Mirzə***

# MSK bələdiyyə seçkilərində namizədlərin qeydiyyatı prosesinə dair seminar keçirib



***2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasının (MSK) maarifləndirmə proqramı çərçivəsində müxtəlif statuslu seçki subyektləri üçün fərqli istiqamətlər üzrə layihələr davam etdirilir.***

Genişmiqyaslı proqrama əsasən dekabrın 19-da bələdiyyə seçkilərində namizədlərin qeydiyyatı prosesinə dair seminar təşkil olunub.

Qeyd edilib ki, namizədliyin qeydə alınması üçün təqdim olunan imza vərəqələrində və onlara əlavə edilmiş sənədlərdə olan məlumatların düzgünlüyünü yoxlamaq məqsədilə dairə seçki komissiyaları nəzdindəki işçi qruplarını əhatə edən bu layihə ənənəvi şəkildə gerçəkləşdirilməklə, onların fəaliyyətinin daha da təkmilləşdirilməsinə mühüm töhfələr verib və sonuncu belə tədbir qısa müddət əvvəl Milli Məclisə seçkilər zamanı reallaşdırılıb.

Bütün sadalananlar nəzərə alınaraq, budəfəki seminar bələdiyyə seçkilərində namizədlərin irəli sürülməsi və qeydə alınması prosesinin dinamik və intensiv davam etdiyi bir mərhələdə müxtəlif aidiyyəti məsələlərin, həmçinin təcrübədə ortaya çıxan halların tam praktiki müzakirəsinə həsr olunub.

Seminarda açılış nitqi ilə çıxış edən MSK sədrinin müavini Rövzət Qasımov bir sıra məqamlarla yanaşı, Komissiya tərəfindən ardıcıl, sistemli şəkildə həyata keçirilən maarifləndirmə layihələrindən danışıb və bu layihələrin seçkilərin yüksək səviyyədə hazırlanıb, azad, ədalətli və şəffaf keçirilməsindəki əhəmiyyətini xüsusi vurğulayıb.

R.Qasımov bələdiyyə seçkilərində vətəndaşların birbaşa Konstitusiya ilə təsbit edilmiş passiv seçki hüquqlarının daha səmərəli təmin olunmasında dairə seçki komissiyalarının nəzdində fəaliyyət göstərən işçi qruplarının üzərinə böyük məsuliyyət düşdüyünü xatırladıb, onların öz vəzifə və səlahiyyətlərini yerinə yetirərkən qanunvericiliyin tələblərinə dəqiq əməl etmələrinin zəruriliyini diqqətə çatdırıb.

Daha sonra gündəliyə uyğun olaraq, Komissiya üzvlərinin bələdiyyə seçkilərində passiv seçki hüququnun mənsubiyyəti və onun realizə imkanları, namizədlərin qeydə alınması prosesinin qanunvericilik əsasları və qaydaları, eləcə də işçi qrupunun fəaliyyətinin praktiki aspektləri və əldə olunmuş təcrübə barədə təqdimatları dinlənilib. Əyani vəsaitlərdən də istifadə edilməklə keçirilən təqdimatlarla iştirakçılar mövzularla bağlı ətraflı məlumatlandırılıb.

Seminarın praktiki hissəsi bələdiyyə seçkilərində namizədliyin irəli sürülməsi və qeydə alınmasına dair müxtəlif məsələlər ətrafında geniş müzakirə və sual-cavab sessiyası ilə öz işini davam etdirib.

Namizədliyin qeydə alınması üçün təqdim edilən imza vərəqələrində və onlara əlavə edilmiş sənədlərdə olan məlumatların düzgünlüyünü yoxlamaq məqsədilə bələdiyyə seçkiləri keçirilən 118 seçki dairəsi üzrə dairə seçki komissiyalarının hər birinin nəzdində fəaliyyət göstərən işçi qrupunun rəhbəri seminarda iştirak edib.

# MSN-nin nümayəndə heyəti "Vietnam Defence Expo 2024" sərgisində iştirak edir

***Vyetnamın Hanoy şəhərində "Vietnam Defence Expo 2024" 2-ci Beynəlxalq Müdafiə Sərgisi işə başlayıb, Azərbaycan nümayəndə heyəti də iştirak edir.***

Bu barədə "Unikal"a Müdafiə Sənayesi Nazirliyindən məlumat verilib.

Vyetnamın Milli Müdafiə Nazirliyinin təşkilatçılığı ilə iki ildən bir keçirilən sərgidə silah, döyüş sursatları, hərbi hava və hava hücumundan müdafiə vasitələri, hərbi gəmilərin sistem və avadanlıqları, pilotsuz uçuş aparatları, helikopterlər, rabitə, naviqasiya sistemləri, zirehli nəqliyyat, kəşfiyyat və radioelektron mübarizə vasitələri və s. nümayiş etdirilir.

Qeyd edək ki, tədbir dekabrın 22-də başa çatacaq.

45_27 IYUl-QARA.qxd 12/19/2024 9:59 PM Page 9





## Azərbaycanda strateji əhəmiyyətli malların monitorinqi aparılacaq

***Strateji əhəmiyyətli malların monitorinqi qaydası və həmin mallar üzrə qısamüddətli kəskin qiymət dəyişməsinin müəyyən edilməsi meyarları təsdiqlənib.***

”Unikal”ın xəbərinə görə, Nazirlər Kabineti bu barədə qərar verib. Bu Qayda strateji əhəmiyyətli malların monitorinqinin həyata keçirilməsinin təşkilati və hüquqi əsaslarını, qaydasını, həmçinin həmin mallar üzrə qısamüddətli kəskin qiymət dəyişməsinin meyarlarını müəyyən edir. Strateji əhəmiyyətli malların monitorinqi dövlət ehtiyatları üzrə məsul orqan - Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi tərəfindən həyata keçirilir.

Monitorinqin məqsədi ölkənin strateji əhəmiyyətli mallarla təchizat dayanıqlığının təmin edilməsi üzrə vəziyyətin öyrənilməsi və həmin mallar üzrə qısamüddətli kəskin qiymət dəyişməsinin qarşısının alınması istiqamətində tədbirlər görülməsinin zəruriliyinin qiymətləndirilməsidir.

**Monitorinq özündə aşağıdakıları ehtiva edir:**

- strateji əhəmiyyətli malların mövcudluğu və hərəkəti barədə məlumatların əldə edilməsi;
- strateji əhəmiyyətli mallarla təchizatın dayanıqlığına təhlükə yaradan faktorların müəyyən edilməsi və qiymətləndirilməsi;
- strateji əhəmiyyətli malların həcminin müntəzəm izlənilməsi;
- strateji əhəmiyyətli malların həcminin azalması ehtimalı yarandıqda bu malların həcminin nəzarətdə saxlanılması.

Monitorinq aşağıdakı məlumatlar əsasında aparılır:

- Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları;
- internet resurslarından və mediadan əldə edilən məlumatlar;
- bazar iştirakçılarından əldə edilən məlumatlar.

Bazar iştirakçıları tərəfindən təmin edilən strateji əhəmiyyətli mallar üzrə monitorinq, həmin mallar üzrə bazar iştirakçıları tərəfindən təmin edilən malların ən azı 90 (doxsan) faizini təmin edən bazar iştirakçılarını əhatə edir.

Monitorinq strateji əhəmiyyətli malların siyahısına daxil edilmiş hər bir mal üzrə ayda 1 (bir) dəfə 5 (beş) gün müddətində həyata keçirilir. Strateji əhəmiyyətli malların pərakəndə satış qiymətlərində kəskin qiymət dəyişməsi baş verdikdə növbədənkənar monitorinq həyata keçirilir. Monitorinqin həyata keçirilməsi məqsədilə Agentlik tərəfindən mütəxəssislər dəvət oluna bilərlər. Monitorinqin nəticələrinə əsasən strateji əhəmiyyətli mallarla təchizat dayanıqlığının pozulması və həmin mallar üzrə qısamüddətli kəskin qiymət dəyişməsi ehtimalına dair arayış Agentlik tərəfindən tərtib edilir və hər ayın 15-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilir.

Strateji əhəmiyyətli mallar üzrə qısamüddətli kəskin qiymət dəyişməsi aşağıdakı meyarların hər birinə uyğun olmalıdır:

- pərakəndə satış qiymətinin son 10 (on) gün müddətində 10 (on) faizdən çox dəyişməsi;
- qiymət dəyişməsinin 1 (bir) aydan çox olmayan müddətdə davam etməsi ehtimalı.

# İcra başçılarının sevimli şirkəti ilə bağlı müəmmalar

## Son 3 ildə milyonlarla manatlıq tenderlər udan MMC kimindir?

***Bir müddət öncə məlumat yayılmışdı ki, Biləsuvar Rayon İcra Hakimiyyəti (RİH) şəhər ərazisində avtomobil yollarının əsaslı təmiri işlərinin satınalınması ilə bağlı elan etdiyi tenderi yekunlaşdırıb. Həmin tenderin qalibi bu dəfə də “Proqress İnşaat EN” MMC olub. Belə ki, şəhər ərazisindəki avtomobil yolları büdcə vəsaiti hesabına təmir olunacaq.***

İcra Hakimiyyətinin elan etdiyi məlumata görə, təmir işləri 564 min manata başa gələcək. Artıq RİH-lə şirkət arasında müqavilə də bağlanıb.



Maraqlıdır ki, adı çəkilən MMC bundan əvvəllər də Biləsuvar RİH-in tenderlərinin qalibi olub.

Xatırladaq ki, sözügedən rayonun hazırkı icra başçısı Faiq Qürbətov 2020-ci ildən bu vəzifədə çalışır.

Ötən ilin dekabrında isə Xızı Rayon İcra Hakimiyyəti abadlıq işlərinin aparılması ilə bağlı elan etdiyi tenderə yekun vurub. Bu tenderin qalibi də ”Proqress İnşaat EN” MMC seçilib. Həmin vaxt bildirilirdi ki, tərəflər arasında 271.586,72 AZN-lik satınalma müqaviləsi imzalanacaq. Üstəlik, diqqətə layiq bir məqam da vardı: eyni ayın vur-tut 8 günü ərzində ”Proqress İnşaat EN” yüksəkməbləğli 5 tender qazanmışdı.

Vurğulayaq ki, Xızı rayonunun icra başçısı Xəzər Aslanovdur. O, 2012-ci ildə həmin posta təyin edilib.

Ümumiyyətlə, bir çox rayonların icra başçılarının “Proqress İnşaat EN” şirkətinə “sevgisi” maraq doğurur. Məsələn, İsmayıllı rayon İcra Hakimiyyəti ilə 415.090,03 manat, İsmayıllı rayon İcra Hakimiyyəti başçısının İsmayıllı şəhər Ərazisi üzrə Nümayəndəliyi ilə 19.643,22 manat məbləğində satınalma müqavilələri bağlanılıb. Bu rayonun icra başçısı Nahid Bağırovdur. O, sözügedən vəzifədə 2020-ci ildən çalışır.

“Proqress İnşaat EN” həmçinin İmişli rayon İcra Hakimiyyəti başçısının İmişli şəhər Ərazisi üzrə Nümayəndəliyi ilə 7.911,72 manat, İmişli Mənzil-Kommunal Təsərrüfatı İstehsalat Birliyi ilə 18.099,9 manat məbləğində satınalma müqavilələri bağlayıb. Adı çəkilən rayona 2020-ci ildən Elçin Rzayev rəhbərlik edir.

Bundan başqa, “Proqress İnşaat EN” şirkəti Şirvan şəhər İcra Hakimiyyəti ilə 33.471,17, Lerik rayon İcra Hakimiyyəti başçısının Lerik şəhər Ərazisi üzrə Nümayəndəliyi ilə 9.705,45 manat, Şəmkir rayon İcra Hakimiyyəti başçısının Dəllər qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi ilə 53.249,73 manat satınalma müqavilələri bağlayıb. Qeyd edək ki, Şirvan rayonuna 2019-cu ildə İlqar Abbasov, Lerik rayonuna 2022-ci ildə Əkbər Abbasov, Şəmkir rayonuna Rəşad Tağıyev icra başçısı təyin olunublar.

“Proqress İnşaat EN” Cəlilabad rayon İcra Hakimiyyəti başçısının Cəlilabad şəhər Ərazisi üzrə Nümayəndəliyi ilə 230.146,02 manat, Cəlilabad rayon İcra Hakimiyyəti başçısının Göytəpə şəhər Ərazisi üzrə Nümayəndəliyi ilə 37.331,63 manat məbləğində satınalma müqavilələri də bağlayıb. 2021-ci ildən etibarən Cəlilabad rayonunun icra başçısı Rafiq Cəlilovdur.

Onu da deyək ki, “Proqress İnşaat EN” MMC-nin xidmətinə maraq göstərən icra başçılarının siyahısı yuxarıda sadalananlarla bitmir və həmin sıralamanı yetərincə uzatmaq mümkündür. Bəs müxtəlif rayon rəhbərlərinin qısa müddətdə sevimlisinə çevrilmiş şirkətlə bağlı nələr məlumdur?

Araşdırmamıza görə, adı çəkilən MMC 29 noyabr 2021-ci ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 1000 manatdır. Şirkətin qanuni təmsilçisi isə İslamov Nazim Əli oğludur.

Və ən maraqlısı budur ki, cəmi 3 il öncə yaradılan “Proqress İnşaat EN” belə az bir zamanda faktiki şəkildə “tender kralı”na çevrilib. Hətta o dərəcədə ki, ayrı-ayrı vaxtlarda vur-tut bir neçə gün içində 3, yaxud 8 satınalmanın qalibi seçilə bilir!

Digər tərəfdən, şirkətin satınalma predmeti fərqli olan tenderlərdə qalib gəlməsi də diqqətdən yayınmamalıdır. Sözügedən MMC-nin həmin işləri görmək üçün kifayət qədər güclü maddi-texniki bazaya və kadr potensialına malik olması şərtdir. Lakin bu şərtin nə qədər yerinə yetirib- yetirmədiyini söyləyə bilmirik. Çünki “Proqress İnşaat EN” şirkətinin hər hansı saytı, üstəlik, açıq mənbələrdə əlaqə telefonları belə yoxdur.

Sonuncu məqam ümumiyyətlə təəccüb doğurur. 3 il ərzində ölkənin “tender krallarından” birinə çevrilən və milyonlarla manatlıq tender qazanan bir şirkətin internet resursunun olmaması normal məntiqlə izah edilə bilməz. Unutmayaq ki, kommunikasiya çağında yaşayırıq və belə bir çağda ən azı mötəbərlilik, etibarlılıq, eyni zamanda şəffaflıq baxımından şirkətlərin rəsmi saytlarının varlığı yetərincə önəmlidir.

Yeri gəlmişkən, əslində, adından ”Progress İnşaat EN”in təmirtikinti şirkəti olduğunu düşünmək mümkündür. Lakin bu il ölkə universitetlərindən birinin bu MMC-dən 88 146 manatlıq hədiyyə aldığı aydınlaşmışdı. Müvafiq tenderin şərtlər toplusundan məlum olurdu ki, Azərbaycan Tibb Universitetinin alacağı hədiyyələrə bloknot, qələm, qələm üçün qutu, karandaş dəsti, flayşkart, fincan, armudu stəkan dəsti, suvenir boşqab, paket və qovluqdan ibarətdir. Adından və dövlət satınalmalarının vahid elektron portalında yerləşdirilən elanlardan inşaat şirkəti olduğu aydın görünən bir MMC-nin suvenir, boşqab, armudu stəkan dəsdi, yaxud qələm üçün qutu kimi hədiyyələrin alqı-satqısına nə dəxli var, görəsən?!

***Toğrul Əliyev***

45_27 IYUI-QARA.qxd 12/19/2024 11:20 PM Page 10



# Milli Məclisdən Avropa Parlamentinin qərəzli qətnaməsinə reaksiya




***Milli Məclis Avropa Parlamentinin 2024-cü il 19 dekabr tarixli qətnaməsinə münasibət bildirib.***

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən "Unikal"a verilən xəbərə görə, Avropa Parlamentinin 2024-cü il 19 dekabr tarixli plenar iclası ölkəmizə qarşı növbəti qətnamənin qəbulu ilə yadda qalıb.

Qeyd edilib ki, qətnamədə adəti üzrə saxta məlumatlara və rəqəmlərə istinad edilir, reallıqlar təhrif edilir, qanunların pozulmasına gətirib çıxarmış cinayət əməllərinin təhqiqatına siyasi don geyindirilməyə cəhd göstərilir:

"Azərbaycanda bütün əsas hüquq və azadlıqların tam şəkildə təmin edildiyi, o cümlədən qanunvericiliyin tələblərinə riayət edilməsinin zərurət olduğu bir gerçəklikdir. Belə olan halda, Avropa Parlamentinin ölkəmizin daxili işlərinə müdaxilə edən bu sənədi başqa məqsədləri ön plana çıxarır.

Bu qətnamə Azərbaycana qarşı xeyli müddətdir davam edən iftira və böhtan kampaniyasının tərkib hissəsi olduğu şübhə doğurmur. Xüsusən, süni şəkildə yaradılmış bütün əngəlləri dəf edərək, iqlim dəyişmələri ilə mübarizədə dünya ictimaiyyətinin səylərini birləşdirməyə nail olan ölkəmizin əldə etdiyi uğurlar fonunda bu kampaniyanın müxtəlif "elementlər"lə zənginləşdiriləcəyi daha da genişləndiriləcəyi gözlənilən idi.

Bu mənada, Azərbaycanofob, türkofob və islamofob qüvvələrin cəmləşdiyi Avropa Parlamenti də bu kampaniyaya mütləq öz "töhfəsini" verməli idi. Qəbul edilmiş qətnamənin nə dərəcədə qərəzli olduğunu anlamaq üçün təkcə belə bir faktı qeyd etmək lazımdır ki, ölkəmizin ərazisində insanlıq əleyhinə cinayət törətməkdə təqsirləndirilən keçmiş separatçı rejimin nümayəndələri və terrorçular bu sənəddə "erməni hərbi əsirlər" kimi təqdim olunur.

Müşahidələr onu göstərir ki, Fransa, Ermənistan və erməni lobbisinin sifarişlərinin dərhal icrası bu gün Avropa Parlamentinin siyasi simasının xarakterik cizgisidir. Nəticə etibarilə, bu cür qətnamələr ölkəmizə qarşı irəli sürülən gizli gündəliklərin, reallaşdırılmağa çalışan siyasi maraqların əsl mahiyyətini tam şəkildə ortaya qoyur".

# Bakıda həbsdə olan separatçıların işinə Zeynal Ağayev baxacaq

***Xəbər verdiyimiz kimi, Bakıda həbsdə olan erməni separatçılarının cinayət işi məhkəməyə göndərilib.***

"Unikal"ın əldə etdiyi məlumata görə, işə Bakı Hərbi Məhkəməsində hakim Zeynal Ağayevin sədrliyi ilə baxılacaq.



Qeyd edək ki, toplanmış mötəbər sübutlar əsasında ümumilikdə 2548 epizod üzrə Ermənistan Respublikası Silahlı Qüvvələri və qanunsuz silahlı birləşmələr tərəfindən törədilən cinayətlərdə ittham olunan 15 nəfər - Qukasyan (Ğukasyan) Arkadi Arşaviri (Arşaviroviç), Harutyunyan Arayik Vladimiri (Vladimiroviç), Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Babayan Davit Klimi (Klimoviç), Mnatsakanyan Lyova Henrixi, Manukyan Davit Azati, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurqen Homerosi, Balayan Levon Romiki, Babayan Madat Arakeli (Arakeloviç), Beqlaryan Vasili İvani və Qazaryan Erik Robertiyə cinayətkar birlikdə iştirak etdiyi dövrlərə uyğun olaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırım), 105 (əhalini məhv etmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə yenidən təqsirləndirilən şəxs qismində cəlb olunub, hər birinin müdafiə, bildiyi dilindən istifadə etmək və digər prosessual hüquqları təmin edilib. Təqsirləndirilən şəxslər vəkillə təmin edilib.

Habelə, istintaq orqanının vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmə qərarları ilə barələrində həbs qətimkan tədbiri seçilib.

***Seymur Əli***

# "Şagirdlər ixtisas seçimi zamanı əmək bazarındakı tələbatı nəzərə almırlar" - DİM sədri



***Hər il 9-cu sinifdən kifayət qədər şagird təhsilini sona qədər davam etdirmək istəmir və təhsilini bitirmədən əmək bazarına atılır. Biz bu şagirdlərin sayını azaltmaq üçün çalışırıq.***

"Unikal" xəbər verir ki, bu sözləri Karyera İnkişaf Forumunda Dövlət İmtahan Mərkəzinin (DİM) sədri Məleykə Abbaszadə deyib.

M.Abbaszadə ixtisas seçimi zamanı DİM-in şagirdlərə göstərdiyi dəstəkdən danışıb: "Mərkəzin saytında xüsusi testlər hazırlanıb və bu testlərin nəticələrinə uyğun olaraq proqram şagirdə öz əmək sahəsini müəyyənləşdirməyə kömək edir. Testlər mütəxəssislər tərəfindən elmi əsaslara uyğun hazırlanıb. Ancaq təəssüf ki, yeniyetmələr və onların valideyinləri ixtisas seçimi zamanı əmək bazarında olan tələbatı, gələcək yönümlü peşələri nəzərə almırlar. Əsas seçim ətrafdakı insanların düşüncələrinə uyğun müəyyənləşir".

DİM-in sədri qeyd edib ki, ali məktəblərdə dövlət qulluğu sahəsində karyeranı qurmaq üçün gənclərlə görüşlər təşkil olunur: "Bu yaxınlarda keçirdiyimiz layihə çərçivəsində 22 yaşa qədər olan 2 mindən çox gəncə individual məsləhət verilib. Eyni zamanda, gənclər dövlət qulluğunun bələdçisi proqramından yararlana bilərlər. Bu proqram vasitəsilə hansı dövlət qulluğuna uyğun olduğun müəyyən edilir".

# "Azərkosmos" sədri: "Azərbaycan kosmik sahədə aktiv rol oynayan ölkə kimi tanınır"



***Yaxın zamanlarda təkcə kosmik texnologiyaların deyil, həmçinin astronavtlarla bərabər kosmik turistlərin də sayı artacaq.***

Bunu Azərbaycan Respublikasının Kosmik Agentliyinin ("Azərkosmos") İdar? Hey?tinin s?dri Saməddin Əsədov "Kosmik Tibbin əsasları" mövzusunda təlimin açılışında bildirib.

"Əminəm ki, növbəti onillikdə kosmosa yollanan insanların dayı dəfələrlə artacaq. Bu baxımdan kosmik tibbin daha geniş təhlil və tədqiq olunması vacibdir. Azərbaycan 2008-ci ildən etibarən Azərbaycan kosmik sahənin təhlilinə başlayıb. Bu gün ölkəmiz üç istiqamətdə geniş fəaliyyət göstərir. Artıq Azərbaycan dünya səviyyəsində kosmik sahədə aktiv rol oynayan ölkə kimi tanınır", - deyə S.Əsədov deyib.

# Şuşaya gedən sürücülərə xəbərdarlıq

***Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) Şuşa şəhəri istiqamətində hərəkət edən sürücülərə müraciət edib.***

"Unikal" xəbər verir ki, müraciətdə deyilir: "Qarlı və şaxtalı hava şəraitində Şuşaya hərəkət edən sürücülərə alternativ olaraq Füzuli-Qırmızıbazar-Şuşakənd-Şuşa avtomobil yolundan istifadə etməyə üstünlük verməleri tövsiyə olunur".

# Yaşa görə müavinət alanların sayı açıqlanıb

***"2024-cü ilin noyabr ayında yaşa görə aylıq sosial müavinət alanların sayı 155,8 min nəfər olub".***

Bu barədə "Unikal"a Dövlət Sosial Müdafiə Fondundan məlumat verilib.

Bildirilib ki, onların 32,57%-ni kişilər, 67,43%-ni isə qadınlar təşkil edib.

45_27 IYUl-QARA.qxd 12/19/2024 9:59 PM Page 11



## Tacikistan-Azərbaycan Hökumətlərarası Komissiyanın 7-ci iclası keçirildi



***Tacikistan Respublikasının Düşənbə şəhərində Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq məsələləri üzrə birgə Hökumətlərarası Komissiyanın 7-ci iclası keçirilib.***

"Unikal" xəbər verir ki, iclasda Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və Tacikistan Respublikasının iqtisadi inkişaf və ticarət naziri Zavki Zavkizoda çıxış ediblər.

Daha sonra Azərbaycanın iqtisadiyyat nazirinin müavini Rövnəq Abdullayev, mədəniyyət nazirinin müavini Səadət Yusifova, gənclər və idman nazirinin müavini Fərhad Hacıyev və Dövlət Turizm Agentliyi sədrinin müşaviri Kənan Quluzadə nitq söyləyiblər.

İclas protokolunun imzalanmasından sonra Azərbaycan nümayəndə heyəti ilə Tacikistanın Baş naziri Kohir Rəsulzoda, xarici işlər naziri Sirojiddin Muhriddin və Tacikistan Hökuməti yanında Ətraf Mühitin Mühafizəsi Komitəsinin sədri Bahodur Sheralizoda arasında görüşlər keçirilib.

## Bu şəxslərin ödədiyi ƏDV tam geri qaytarılacaq



***Vergi Məcəlləsinə edilən dəyişikliyə əsasən, Azərbaycanda tibbi xidmətlərdən istifadə edən turistlər ödədikləri əlavə dəyər vergisini (ƏDV) tam olaraq geri ala biləcəklər.***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, əcnəbi və vətəndaşlığı olmayan şəxslərə göstərilən tibb xidmətlərinə görə yalnız nağdsız qaydada aparılan ödənişlər üzrə "Tax-free rejimi"ndə ƏDV-nin geri qaytarılması nəzərdə tutulur.

"Dəyişiklikdə əsas məqsəd tibbi turizmə vergi təşviqlərin verilməsidir. Bu o deməkdir ki, Azərbaycanda olan turist tibb xidmətindən istifadə edirsə, ölkəni tərk edən zaman ödədiyi ƏDV-ni geri ala biləcək. Bu dəyişiklik eyni zamanda tibb müəssisələrinin gəlirlərini də artıra bilər. Yeni dəyişiklikdən sonra turistlərin tibb xidmətlərə tələbinin artacağı istisna deyil. Bu isə səhiyyə sektoru üçün daha çox gəlir deməkdir. Bu eyni zamanda səhiyyə sektorunda keyfiyyətin daha da yüksəldilməsi üçün stimul yarada bilər. Dəyişikliyin gələn aydan qüvvəyə minməsi gözlənilir".

## Narkotikə görə 59 əcnəbi saxlanılıb

***Bu ilin 10 ayında Narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə 6693 nəfər cəlb edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun məlumatında deyilir.

Qeyd olunub ki, onlardan 16-18 yaşadək 2 nəfər,18-25 yaşadək 498 nəfər, 26-29 yaşadək 1012 nəfər, 30 yaş və ondan yuxarı isə 5181 nəfər təşkil edir. Həmin şəxslərdən 6497-si kişi, 196-sı qadın olub. Cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərdən 59 xarici ölkə vətəndaşından 25-i İran İslam Respublikası, 10-u Rusiya, 13-ü Türkiyə, 7-si Gürcüstan, 1-i Özbəkistan, 2-si Ukrayna, 1-i Birləşmiş Ərəb Əmirlikləri vətəndaşı olub. Xarici ölkə vətəndaşlarından ümumilikdə 212 kq 424,217 qr müxtəlif növ narkotik vasitə və psixotrop maddə götürülüb.

## İtkin düşən 13 nəfər tapıldı

***Dekabrın 18-də polis əməkdaşlarının keçirdikləri tədbirlərlə ailə üzvlərini məlumatdırmadan yaşadığı ünvanı tərk etdiyinə görə itkin düşmüş kimi axtarışı aparılan 13 nəfər tapılaraq aidiyyəti üzrə təhvil verilib.***

"Unikal" xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyi məlumat yayıb.

## "40 milyon manat verilən şirkət kredit ayrılan gün təsis olunub" - "Şlyapa Zahid"in məhkəməsi

***Müdafiə Nazirliyinin 42 milyon 234 min manatlıq mənimsəmədə ittiham olunan sabiq zabiti Zahid Niftəliyevin (Şlyapa Zahid) növbəti məhkəmə prosesi davam etdirilib.***



"Unikal" Report-a istinadən xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Novruz Kərimovun sədrliyi ilə keçirilən prosesdə şahidlər ifadə verib.

Şahid Şəhla Abdurəhmanova bildirib ki, hazırda Əmanətlərin Sığortalanması Fondunda çalışır. O bundan əvvəl "Ata Bank"da işlədiyini deyib.

"Şahin-CO" şirkəti (ittiham aktına görə Zahid Niftəliyevin yaratdığı şirkət - red) ilə olan müqaviləni dəqiq xatırlayıram. Çünki, kreditin məbləği 40 milyona yaxın olub".

O bildirib ki, "Şahin-CO" şirkəti üçün də protokol və ondan çıxarış olub, sonra, şirkətin cari hesabına kredit köçürülüb.

Ş.Abdurrahmanova idarə heyətinin sədri Dəyanət Quliyevlə həmin müqaviləni imzaladığını deyib: "Müşahidə şurasının sədri protokol və çıxarış hazırlandıqdan sonra müqaviləni imzalamaq səlahiyyətini mənə verib. Protokol, çıxarış, qərar olmadan mən heç nəyi imzalaya bilmərəm", - deyə şahid bildirib.

Dövlət ittihamçısı bildirib ki, şahidin ibtidai istintaqda verdiyi ifadə ilə məhkəmədəki ifadələrində ziddiyyət var. Buna görə də, onun ibtidai istintaqa verdiyi ifadə elan olunub.

Məlum olub ki, "Şahin-CO" şirkəti təsis olunan gün ona kredit verilib. Şahid bunu idarə heyətinin sədri Dəyanət Quliyevə dedikdə, ona "sən qarışma, nə deyilir onu da et" deyilib.

Müqaviləni Zahid Niftəliyev, Dəyanət Quliyev və Ş.Abdurəhmanova imzalayıb. Şəhla Abdurrahmanova ifadəsini təsdiq edib.

Məhkəmənin növbəti prosesi yanvarın 15-də davam edəcək.

Qeyd edək ki, Z.Niftəliyev iki il əvvəl rüşvət alma ittihamı ilə həbs edilib. Daha sonra o, azadlığa buraxıldıqdan sonra Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən yenidən həbs edilib.

Gəncə Apellyasiya Məhkəməsi prokurorun Tərtər Hərbi Məhkəməsinin hökmündən verdiyi protesti təmin edərək Z.Niftəliyevi vəzifə saxtakarlığında və külli miqdarda rüşvət almaqda təqsirli bilib və o, 8 il 6 ay azadlıqdan məhrum olunub.

Bundan başqa Zahid Niftəliyev "Atabank ASC" dən götürdüyü 42 milyon manat kredit vəsaitinin və dövlət rüsumunun ödənilməsi ilə bağlı çıxarılmış Bakı Apellyasiya Məhkəməsinin qətnaməsini qərəzli icra etməyib.

Xatırladaq ki, Z.Niftəliyev Azərbaycan Ordusunun sabiq Baş Qərargah rəisi Nəcməddin Sadıkovun yaxın adamı olub.

## Nazir Santa Çeçiliya Konservatoriyasının rektoru ilə görüşdü



***Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli Romaya səfəri çərçivəsində dekabrın 18-də İtaliya paytaxtında fəaliyyət göstərən Santa Çeçiliya Konservatoriyasının rektoru Franco Antonio Mirenzi ilə görüşüb.***

"Unikal" xəbər verir ki, naziri salamlayan rektor rəhbərlik etdiyi təhsil ocağının tarixi və fəaliyyət istiqamətləri barədə məlumat verib. Bildirib ki, əsrlərlə yaşı olan konservatoriya müxtəlif adlar və statuslarla fəaliyyət göstərib. 1923-cü ildən indiki adını alan məktəb İtaliyanın ən nüfuzlu ali təhsil müəssisələrindəndir.

Adil Kərimli səmimi görüşə və konservatoriya haqqında ətraflı məlumata görə rektora təşəkkürünü bildirib.

Söhbət zamanı nazir ölkəmizin musiqi mədəniyyəti barədə söz açıb, bu sahədə aparıcı təhsil ocaqlarından danışıb. Bildirib ki, Azərbaycanda tarixən Avropa klassik musiqi məktəbinə böyük maraq olub. Görkəmli opera müğənniləri Şövkət Məmmədova və Bülbül XX əsrin əvvəllərində Milan Konservatoriyasında vokal dərsləri alıb, ölkəmizin musiqi mədəniyyətinin inkişafına mühüm töhfələr veriblər. Sonralar da istedadlı gənclərimiz Avropanın məşhur bədii təhsil ocaqlarında oxuyublar.

Qeyd olunub ki, köklü ənənələri olan Bakı Musiqi Akademiyasında, eləcə də Azərbaycan Milli Konservatoriyasında yerli tələbələrlə yanaşı, əcnəbi gənclər də musiqi biliklərinə yiyələnirlər. Avropa klassik bəstəkarlarının əsərləri tədris proqramlarında əksini tapır, teatr-konsert müəssisələrinin repertuarında yer alır.

Görüşdə Azərbaycanın müvafiq ali təhsil ocaqları ilə Santa Çeçiliya Konservatoriyası arasında əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Xatırladaq ki, ölkəmizin nümayəndə heyəti Azərbaycan mədəniyyət elçiləri toplantısı məqsədilə İtaliya paytaxtına səfər edib.

45_27 IYUl-QARA.qxd 12/19/2024 9:59 PM Page 12



## 5.3.7. işğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Qarabağ və Şərqi Zəngəzura "Böyük Qayıdış" sürətlə davam edir

## İbrahim Mirzəyev: "Hazırda Qarabağ və Şərqi Zəngəzurda 30 minə yaxın insan yaşayır"



***"Hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən 2417 ailə 9306 nəfər keçmiş məcburi köçkünlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 30 minə yaxın insan yaşayır".***

Bunu "Unikal" qəzetinə açıqlamasında Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İbrahim Mirzəyev söyləyib. İ. Mirzəyev bildirib ki, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramının Tədbirlər Planının icrası sürətlə davam edir. Dövlət Proqramına əsasən işğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası və sonrakı mərhələlərdə dayanıqlı inkişafına nail olunması üçün ən önəmli strateji istiqamətlər müəyyənləşdirilib. Dövlət Proqramı Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə yenidən qurulmasına, dirçəldilməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi inkişafın təmin olunmasına hədəflənib. Dövlət Proqramına əsasən 2026-cı ilin sonunadək işğaldan azad edilmiş ərazilərdə ümumilikdə 280 min hektar ərazinin minalardan təmizlənməsi planlaşdırılır. Proqram çərçivəsində 34500 mənzil və fərdi yaşayış evi inşa ediləcək. 197 məktəbəqədər və ümumi təhsil müəssisəsinin, 8 peşə təhsili və 1 orta ixtisas təhsili müəssisəsinin tikintisi və bərpası nəzərdə tutulur. Sahibkarlıq fəaliyyəti üçün əlverişli mexanizmlərin yaradılması və bu sahədə məşğulluğun artırılması "Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində qarşıya qoyulmuş əsas vəzifələrdən biridir. 2026-cı ilin sonunadək işğaldan azad edilmiş ərazilərdə ümumilikdə 26 avtomobil yolu layihəsi başa çatdırılacaq. 2026-cı ilin sonuna qədər "Böyük Qayıdış" proqramının I mərhələsinin tamamlanacağı və bu mərhələdə 140 min məcburi köçkünün Qarabağ və Şərqi Zəngəzura qayıdacağı planlaşdırılır. Bütövlükdə "Böyük Qayıdış" proqramının birinci mərhələsində bütün azad olunmuş şəhərlər də daxil olmaqla, 100 yaşayış məntəqəsinin yenidən qurulması və məskunlaşdırılması nəzərdə tutulur. "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası üçün 2022-2026-cı illərdə ümumilikdə təqribən 32 milyard manatdan artıq vəsait tələb olunur.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən isə bildiriblər ki, Dövlət Proqramının tədbirlər planı çərçivəsində "Ərazilərdə təhlükəsiz yaşayışın və dövlət idarəetməsinin təşkili" prioriteti üzrə 28 min hektara yaxın ərazi minalardan və partlamamış hərbi sursatlardan təmizlənib.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası ilə bağlı 2024-cü ilin birinci yarısında ümumilikdə 767 ailə olmaqla 2904 nəfər Şuşa, Füzuli və Laçın şəhərləri, Laçın rayonunun Zabux və Sus kəndlərinə köçürülüb. Azad edilmiş ərazilər üzrə ümumilikdə 612 nəfər işlə təmin edilib.

İşğaldan azad edilmiş ərazilərdə 72,2 km elektrik verilişi xətləri çəkilib. Ərazilərdə telekommunikasiya və poçt xidmətləri infrastrukturunun qurulması məqsədilə 2 yaşayış məntəqəsində, inzibati binada poçt xidmətləri yenidən təşkil edilib. 1 ədəd radio-televiziya yayımı stansiyasının fəaliyyəti təmin edilib. Mobil telekommunikasiya xidmətlərinin təşkili üzrə 11 yeni baza stansiyası quraşdırılıb.

Respublika və yerli əhəmiyyətli avtomobil yollarının tikintisi və yenidən qurulması istiqamətində Kəlbəcər və Laçın rayonları ərazisində yol infrastrukturunun, Ağdam şəhərinin daxili yollarının, Xudafərin-Qubadlı-Laçın, Əhmədbəyli-Füzuli-Şuşa, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd, Toğanalı-Kəlbəcər-İstisu və Şuşa-Laçın avtomobil yollarının tikintisi davam etdirilib.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə azad edilmiş ərazilərdə banklar və Azərpoçt tərəfindən quraşdırılmış POS-terminalların sayı 611 ədəd təşkil edib.

Sahibkarlıq fəaliyyəti üçün əlverişli mexanizmlərin yaradılması istiqamətində regionlarda fəaliyyət göstərən sənaye parklarında 11 müəssisə rezident, 1 müəssisə isə qeyri-rezident kimi qeydiyyata alınıb. Emal sənayesi və xidmət infrastrukturunun inkişaf etdirilməsi istiqamətində, ümumilikdə, 170 layihə üzrə rezidentlərin fəaliyyəti təmin edilib.

Böyük Qayıdış Dövlət Proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərə qayıdacaq sakinlərin ev, iş məsələlərinin həlli ilə yanaşı, təhsil almaq hüququnun təmin edilməsinə də ciddi diqqət yetirilir. 2023-cü il noyabrın 28-də Prezidenti İlham Əliyevin "Qarabağ Universitetinin yaradılması haqqında" Sərəncam imzalaması bu istiqamətdə atılan ən önəmli addımlardan biri kimi yadda qaldı. Regionda modern universitet modelinin bənzərsiz nümunəsi olan Qarabağ Universiteti ölkəmizdə insan kapitalını formalaşdıracaq yeni ali təhsil müəssisəsi kimi həyatımıza daxil oldu. Həmçinin Qarabağda yüksək ixtisaslı kadrların hazırlığını həyata keçirən ali təhsil müəssisəsinin təşkili azadlığına qovuşmuş ərazilərin iqtisadi potensialı, eləcə də əmək bazarının tələbləri baxımından son dərəcə vacibdir.

***Gülayə Mecid***

# Media savadlılığı nədir?

***"Media haqqında" Qanuna əsasən media savadlılığı kütləvi informasiyanın məzmunu, onun ötürülməsi və istehlakı üzrə biliyə sahib olma, tənqidi dəyərləndirmə, müxtəlif kontekstlərdə istifadə etmə və təhlil aparma qabiliyyətidir. Nəzəri baxımdan isə media savadlılığı bütün kommunikasiya formalarından və texnologiyalarından istifadə etməklə səmərəli şəkildə kütləvi informasiyanın axtarılması, təhlil edilməsi, tənqidi qiymətləndirilməsi, eləcə də müxtəlif məlumatların paylaşılması bacarıqlarından ibarətdir.***

**Rəqəmsal mühitdə media savadlılığı**

Çap mətbuatının əsas məlumat mənbəyi olduğu dövrdə ənənəvi savadlılıq anlayışı məlumatı anlamaq və ünsiyyət qurmaq bacarığı idi. Lakin çap mediasının artıq əsas və yeganə məlumat mənbəyi olmadığı müasir dünyada bu rol onlayn media tərəfindən mənimsənilib və ənənəvi savadlılıq anlayışı da buna uyğun olaraq mütəmadi yenilənir. Mətni, təsvirləri və səsləri və ya bu elementlərin hər hansı birləşməsini müxtəlif media formalarında oxumaq, başa düşmək, qiymətləndirmək, eyni zamanda qarşılıqlı əlaqə və ya hər hansı məzmun yaratmaq media savadlılığı anlayışına daxil olan rəqəmsal savadlılıq predmetləridir. Müasir cəmiyyətin hər bir sahəsinə nüfuz edən texnoloji tərəqqi media sənayesinə də ciddi təsir göstərir, müvafiq sahədə köklü dəyişikliklərə səbəb olur, eləcə də yeni media məhsulları və xidmətləri yaradır, bir sözlə, virtual və mürəkkəb media mühiti üçün yeni imkanlar təqdim edir. Texnoloji təkamülün media mühitinə kompleks təsiri və ənənəvi media məzmunlarının (mətn, qrafika, audio, video) rəqəmsal formaya inteqrasiyası medianın təsir dairəsini genişləndirmiş, məzmun istehsalı üçün tələb olunan vaxt, maliyyə xərcləri, media məzmunlarının yayımlanmasında məkan və zaman məhdudiyyətlərini aradan qaldıraraq medianı ictimai platformaya çevirmişdir.

**İnformasiya savadlılığı, rəqəmsal savadlılıq və media savadlılığı**

**İnformasiya savadlılığı**

İnformasiya savadlılığı ehtiyac duyulan informasiyanın nə olduğunu dərk etməyi, lazım olan məlumatı tapmağı, qiymətləndirməyi və ondan səmərəli istifadə etməyi tələb edən bacarıqlar toplusudur. İnformasiya resurslarının çoxaldığı müasir dövrdə informasiya savadlılığı da getdikcə daha çox əhəmiyyət kəsb edir. Bu mühitin artan mürəkkəbliyi səbəbindən fərdlər filtrdən keçirilməmiş, həqiqiliyi, etibarlılığı dəqiq müəyyən olunmamış informasiya seçimləri ilə üzləşirlər.

İnformasiya savadlılığı informasiya resurslarından səmərəli istifadə ilə bağlı praktiki bacarıqları əhatə edir və bir çox hallarda media və informasiya savadlılığı anlayışları birgə istifadə olunur. İnformasiya savadlılığı aşağıdakı anlayışlarla sıx əlaqəlidir:

- tənqidi düşünmək;
- xəbəri anlamaq;
- jurnalistikanın prinsiplərini dərk etmək;
- onlayn medianın necə fəaliyyət göstərdiyini başa düşmək;
- onlayn mediada yayılan məlumat və hadisələrin heç də həmişə reallığı əks etdirmədiyini anlamaq.

**Rəqəmsal savadlılıq**

Rəqəmsal media savadlılığı, yeni internet platformaları, sosial media və mobil qurğular kimi rəqəmsal texnologiyalar vasitəsilə yayılan məlumatları tapmaq, qiymətləndirmək, yaratmaq, təhlil etmək və paylaşmaq kimi bacarıqlar müasir medianın tələblərinə uyğunlaşmaq istiqamətində istehlakçıların inkişafına töhfə verir. İnternetin təkamülü ilə mürəkkəb media mühitində gündəmə gələn rəqəmsal savadlılıq rəqəmsal cəmiyyətdə yaşamaq, öyrənmək və işləmək üçün zəruri hesab edilən həm koqnitiv, həm də texniki bacarıqları əhatə edir.

**Rəqəmsal savadlılıq 4 əsas bacarığa bölünür:**

- Şəxsi məlumatların müxtəlif tərəflərlə paylaşılması riski qiymətləndirilməli, bu məlumatların başqaları tərəfindən necə istifadə oluna biləcəyi ehtimal edilməli, məxfiliyin qorunması üçün tədbirlər görülməlidir;
- İnformasiya mühiti dərk edilməli və onlayn platformadakı fəaliyyət buna uyğun düzgün yönləndirilməlidir;
- İstehlak edilən məzmuna tənqidi və sorğulayıcı yanaşma bacarığı formalaşmalıdır;
- Hər hansı məzmun istehsal və ya istehlak edilərkən onun nəticələri nəzərdən keçirilməlidir.

**Media savadlılığı**

Müasir media məkanında "informasiya bolluğu" olan bu dövrdə hər bir istifadəçi gündəlik olaraq bir çox suallarla qarşılaşır, bu şəraitdə düzgün, dəqiq, qərəzsiz məlumatlar əsasında qərar vermək, informasiya mənbələri və axını ilə səmərəli qarşılıqlı əlaqə qurmaq, məlumatlar üzrə axtarış aparmaq və təhlil etmək, doğru məlumatı yanlış məlumatdan ayırmaq üçün media savadlı olmağa xüsusi ehtiyac var.

Media savadlılığı, ümumilikdə, geniş yayılmış media məhsullarına tənqidi yanaşma kimi başa düşülür. Media məhsullarının istehsalında istifadə edilən metodlar, texnologiyalar və subyektlərin, eləcə də verilən ismarıcların təhlili və bu təhlildə fərdi xüsusiyyətlərin rolunu anlamaq da bu anlayışa daxildir. Sürətlə qloballaşan və interaktivliyin çox olduğu dünyada media təhsili düzgün cavablara malik olmaqla yanaşı düzgün suallar verməklə də bağlıdır. Hazırkı dövrdə bir çox ölkələrdə media və informasiya savadlılığı təməl insan hüquqları və dayanıqlı inkişaf anlayışları ilə demək olar ki, eyniləşdirilir. Qeyd edilənləri nəzərə alaraq, 21-ci əsrdə media savadlılığının həyati bacarıq kimi qiymətləndirilməsi təəccüblü deyildir.

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.

45_27 IYUI-QARA.qxd 12/19/2024 9:59 PM Page 13



## Narkoloji və QİÇS-dən müalicə alan şəxslərin sayı açıqlanıb



***Azərbaycanda hazırda metadonla əvəzedici müalicə proqramı üzrə üç məntəqədə 849 nəfər müalicə alır.***

"Unikal" xəbər verir ki, bu barədə Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə 2024-cü ilin yanvar-noyabr aylarının yekununa dair məlumatda qeyd olunub.

Bildirilib ki, onlardan 328-i Respublika Narkoloji Mərkəzində, 378-i QİÇS-lə Mübarizə Mərkəzində,143-ü Sumqayıt Narkoloji Mərkəzindədir.

Respublika QİÇS-lə Mübarizə Mərkəzinin verdiyi məlumata əsasən, ölkədə narkomanların İnsanın İmmunçatışmazlığı Virusuna yeni yoluxma hadisələrinin sayında azalma müşahidə olunur.

Cari ilin noyabr ayının sonuna kimi İİV-ə yoluxmuş Azərbaycan vətəndaşları arasında 70 nəfəri (6,6%-i) inyekson narkotik istifadəçiləri olub.

## Bakı-Ağstafa istiqamətində əlavə qatar reysləri təyin edildi



***"Azərbaycan Dəmir Yolları" QSC (ADY) dekabrın 28-29-u tarixlərinə Bakı-Ağstafa-Bakı istiqamətində əlavə qatar reysləri təyin edib.***

"Unikal" bu barədə səhmdar cəmiyyətinə istinadən xəbər verir. Bu, bayram günlərində sərnişin tələbatını təmin etmək məqsədilə həyata keçirilir. ADY bildirir ki, bayram günlərində - dekabrın 30-dan yanvarın 5-dək, Bakı-Ağstafa-Bakı marşrutu üzrə qatarlar hər gün hər iki istiqamətdə hərəkətdə olacaq. "Qatarların hərəkət cədvəli və biletlər haqqında əlavə məlumatları dəmiryol vağzallarının kassalarından, ADY-nin rəsmi saytından (www.ady.az), "ADY Mobile" mobil tətbiqindən, eləcə də 24/7 xidmət göstərən 1822 Əlaqə Mərkəzindən əldə edə bilərsiniz", - məlumatda qeyd edilib.

## Azad olunan ərazilərə köçürülən 4 minədək şəxsin məşğulluğu təmin edilib

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi işğaldan azad olunan ərazilərə köçürülən 4 minədək şəxsin məşğulluğunu təmin edib.***

"Unikal" xəbər verir ki, bu barədə nazirlik məlumat yayıb.

Qeyd edilib ki, sakinlər üçün peşə hazırlığı kurslarının təşkili işləri aparılır. Artıq 125 sakin işəgötürənlərlə birgə təşkil olunan peşə hazırlığı kurslarına cəlb edilib. Bildirilib ki, 145 sakin üçün isə özünüməşğulluq proqramı çərçivəsində kiçik təsərrüfatlar yaradılıb. Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərdə əmək yarmarkalarının təşkili də davam etdirilir. Cari ildə həmin ərazilərdə daha 6 yarmarka keçirilib.

## Bazar iştirakçılarına dair Meyarlar təsdiqləndi

***Bazar iştirakçılarına dair meyarlar və onlar tərəfindən təmin edilən mallara bağlı dövlət ehtiyatları üzrə məsul orqana məlumat təqdim edilməsi Qaydası təsdiqlənib.***

"Unikal" xəbər verir ki, Nazirlər Kabineti bu barədə qərar verib.

# Büdcə-2025: Neftdən asılılıq davam edir

***Gələn ilin gəlirləri 38,3 milyard manat, xərcləri 41,4 milyard manat nəzərdə tutulan dövlət büdcəsində mədaxilin 49%-i neft, 51%-i isə qeyri-neft-qaz sektorunun hesabına formalaşacaq. ÜDM-də qeyri-neft-qaz sektorunun payının 68%-dən 71,3%-ə yüksələcəyi gözlənilir. Lakin...***




Büdcə gəlirlərinin 15 milyard 500 milyon manatı və ya 40.5%-i Dövlət Vergi Xidməti, 14 milyard 481 milyon manati və ya 37.8%-i Dövlət Neft Fondundan (ARDNF) transfert, 6 milyard 600 milyon manatı və ya 17.2%-i Dövlət Gömrük Komitəsi, 840 milyon manatı və ya 2,2%-i büdcə təşkilatlarından daxilolmalar, 895 milyon manatı və ya 2.3%-i isə digər gəlirlərin hesabına təmin olunacaq.

Diqqət yetirin: növbəti ilin büdcə gəlirlərinin formalaşması ən çox Neft Fondunun 14 milyard 481 milyon manatı hesabına başa gələcək ki, bu da, 2024-cü illə müqayisədə 1 milyard 700 milyon və ya 13,3%, 2023-cü ilin icra göstəriciləri ilə müqayisədə isə 2 milyard 743,4 milyon manat və ya 23.4% çox transfert deməkdir. İndiyədək dövlət büdcəsi ARDNF-dən bu səviyyədə transfert görməyib.

Cari ilin büdcəsinə ilin ortasında yenidən baxılanda gəlirlərin proqnozlaşdırılandan 2 milyard 18 milyon manat və ya 6,4% artırılaraq 36 milyard 35 milyon 300 min manat edilməsi zamanı bunun Neft Fondu üzrə əlavə transfert olmadan həyata keçirilməsini müsbət dəyərləndirmişdim. Ona görə ki, ötən il ARDNF-dən transfert 457 milyon 700 min manat və yaxud 4,05% səviyyəsində artırılmışdı. 2022-ci ildə isə adıçəkilən fonddan büdcəyə nəzərdə tutulan 12 milyard 710 milyon manat transfert həcmi 1 milyard 192 milyon 500 min manat azaldılmışdı ki, nəticədə, ARDNF-dən köçürmə 2020 və 2021-ci illərdəkindən də aşağı səviyyəyə enmişdi. Bu da xərclərin artması fonunda böyük hadisə və addım sayılırdı.

2021-ci ildə və ondan əvvəlki ildə - 2020-ci ildə də dövlət büdcəsinə ARDNF-dən transfert eyni məbləğdə - 12 milyard 200 milyon manat təsdiqlənmişdi. 2022-ci ilin dövlət büdcəsindəsə Fonddan transfert əvvəlki illərdəkindən 510 milyon manat və ya 4,2% çox proqnoz edilmişdi. Bundan əlavə, 2021-ci ildə Fonddan transfert ilin sonuna ümumiyyətlə 850 milyon manat az həyata keçirilmişdi.

Qeyd etmək istədiyim budur ki, neftin dünya bazar qiymətləri neçə illərdir həm dövlət, həm də Neft Fondu büdcəsində nəzərdə tutulandan yüksək səviyyədə olduğundan, digər tərəfdən isə qeyri-neft-qaz sektorundan gəlirlərin və yığımın da durmadan artmasından irəli gələrək ARDNF-dən transfert azaldılır və əslində bu, ən düzgün yol sayılır.

Ümumiyyətlə, büdcəyə dürüstləşdirmə zamanı ilk ən böyük müsbət cəhət məhz ondan ibarət olmalıdır ki, gəlirin artırılması Neft Fondu hesabına deyil, başqa mənbələr hesabına həyata keçirilsin. Buna rəğmən, istənilən xərc istiqamətində hər cür addım atmaq olar.

Sözün qısası, 2025-ci ilin dövlət büdcəsi də neftdən asılı vəziyyətdədir. Bəli, transfertləri nəzərə almadan, dövlət büdcəsi gəliri gələn il üçün 23,8 milyard manat proqnozlaşdırılıb. Ümumiyyətlə, dövlət büdcəmizin inkişaf dinamikası artım üzərində kökləndiyindən, ARDNF-dən transfertsiz büdcə gəlirləri 2023-cü ildə 23,5 milyard manat, 2024-cü ildə 23,6 milyard manat olduğu halda, 2025-ci ildə, təkrar edirəm, 23,8 milyard manat proqnoz edilib.

Bəli, 2014-cü ildə dövlət büdcəsinin neft-qaz üzrə gəlirləri 15,5 milyard ABŞ dolları və ya büdcə mədaxilinin 66,0%-ni təşkil edirdisə, cari ildə, yəni 2024-cü ildə büdcəyə dürüstləşdirmədən sonra neft-qaz gəlirlərinin onda payı 10,5 milyard ABŞ dollarına bərabər olmaqla 49,0%-ə enib.

Lakin sosialyönümlü xərclərin 8,8% artırılaraq 16,9 milyard manata çatdırıldığını və dövlət büdcəsi məsrəflərinin də 41%-i əhatə etməklə sosial siyasətin prioritetlik təşkil etdiyini nəzərə alsaq, neft və qaz gəlirlərindən asılılığımız davam edir və bu, hələ bir neçə il də öz tendensiyasını qoruyub saxlayacaq(azvision.az).

***Pərviz Heydərov***

# AQTA-dan saxta içkilərlə bağlı xəbərdarlıq

***Yeni il bayramı ərəfəsində spirtli içkilərin kütləvi istehlakını nəzərə alaraq, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) istehlakçıları diqqətli olmağa çağırıb.***

"Unikal" xəbər verir ki, bəzi xarici ölkələrlə yanaşı, ölkəmizdə də bayram ərəfəsində qanunsuz yollarla saxta spirtli içki hazırlayıb insanların sağlamlığı və həyatı bahasına qazanc əldə etməyə çalışan "işbaz"lara rast gəlinir. Bu kimi qanunsuz fəaliyyətlərin qarşısının alınması istiqamətində AQTA və hüquq-mühafizə orqanları tərəfindən mütəmadi qaydada yoxlama-nəzarət tədbirləri, reydlər keçirilir və aşkar olunan qanunazidd hallarla bağlı ən sərt tədbirlər görülür. Bununla yanaşı, istehlakçıların da bu məsələdə daha diqqətli olması tövsiyə olunur.

Mütəxəssislərin rəyinə görə, kustar üsullarla saxta spirtli içkilərin hazırlanmasında metil (metanol) spirtindən istifadə edilir. İstehlakçıların zəhərlənməsinə səbəb olan metil texniki, sənaye spirtidir və onun qida kimi istifadə edilməsi yolverilməzdir. Metil spirtinin az miqdarda qəbulu belə, orqanizmdə çox ciddi fəsadlara səbəb olur.



Qida üçün nəzərdə tutulmayan, insan sağlamlığına təhlükə yaradan maddələrin spirtli içki məhsullarının hazırlanmasında istifadə olunması qəti şəkildə yolverilməzdir. Həmçinin vətəndaşların həyat və sağlamlığına qəsd törətdiyi üçün cinayət məsuliyyəti yaradır. Adətən, dələduzlar bu cür qanunsuz fəaliyyətlə gizli və qapalı məkanlarda məşğul olduğundan onların aşkarlanması və ifşa olunmasında vətəndaşların dəstəyinə və bu istiqamətdə ictimai nəzarətin gücləndirilməsinə ehtiyac var.

Vətəndaşlardan belə qanunsuz hallarla rastlaşdıqda aidiyyəti dövlət orqanlarına, o cümlədən Agentliyin "1003-Çağrı Mərkəzi"nə məlumat vermələri xahiş olunur. Eyni zamanda ictimai iaşə, satış və digər məkanlardan qida məhsulları alarkən məhsulun qablaşdırmasına, etiket məlumatlarına diqqət yetirmələri, qida təhlükəsizliyi ilə bağlı müvafiq sənədləri tələb etmələri tövsiyə olunur.

# Rəşadət zirvəsindən boylanan qəhrəman

***Minlərlə qeyrətli oğul kimi Şamo Kərimovu da şəhidlik zirvəsinə Vətən sevgisi aparıb. O, 44 günlük haqq savaşımızda ölümün gözünə dik baxa-baxa, şüurlu surətdə yağı düşmənin üzərinə gedib və son damla qanına qədər qəhrəmancasına döyüşüb. Bununla da dünyadan 33 yaşında köçsə də, gələcək nəsillərimiz üçün bir tarix yazıb. Həm də qazanılan qələbəmizin mərdlik simvoluna çevrilərək milyonların ürəyində özünə əbədi yuva qurub. Həmçinin Şamo Kərimovun ölümündən sonra dövlət tərəfindən layiq olduğu "Cəsur döyüşçü", "Vətən uğrunda", Cəbrayılın, Füzulinin azadlığına görə medalları onun müharibə meydanında göstərdiyi şücaətə bir nişanədir.***



Cəlilabadın Maşlıq kəndində dünyaya göz açan Şamo Elman oğlu Kərimov Vətənin daşına, torpağına, eləcə xalqına sevdalı böyüyüb. Müqəddəs amallara tapınıb yaşaması, saf əxlaqı, dürüst vicdanı onu yalnız yaxşı əməllərə sövq edib. Şamo müstəqil həyatına başlayanda canına yağı dadanmış Qarabağımızın taleyi onu daha çox düşündürüb. Elə əsgərliyə də düşməndən qisas almaq məqsədilə yollanıb. Cəbhə bölgəsinə düşən Şamo Vətəninə vicdanla, qeyrətlə xidmət edib, məqamı gələndə murdar niyyətli erməni dığalarına qarşı amansız olacağına and içib. Xidmət zamanı bir qayda olaraq yüksək nizam-intizamla, hərbi anda sonsuz sədaqətlə, verilən tapşırıqları sözsüz yerinə yetirməklə əsgərlər arasında seçilib, fərqlənib.

Şamo Vətənə olan borcunu verib evə qayıdıb. Qaldı ki, düşməndən alacağı öcün vaxtını intizarla gözləyib, dostlarına da bildirib ki, dığalara qarşısında uduzmaq heç cür bizə yaraşmır. Müharibə başlansa, ön sırada Vətən uğrunda mən döyüşərəm...

Şamo bir müddət ailəsi ilə Rusiyada yaşamalı olub. Burada boksa uşaqlıqdan olan marağını davam edib. Qatıldığı yarışlarda həmişə qələbə qazanıb. Yaxşı idmançı kimi tanınıb, hörmət qazanıb.

Az sonra idman ustası kimi Şamo Kərimov Azərbaycana qayıdıb. Əzəl gündən həyatının mənasını xalqına, Vətəninə xidmətdə görən gənc doğma Maşlıq kəndində qurub-yaratmağa başlayıb. Gördüyü əməllərə görə hamı ona əsl övlad məhəbbəti bəsləyib. Vətəninə, millətinə ürəkdən bağlı olan Şamo düşmən təxribatından əziyyət çəkən insanları düşünməklə müddətdən artıq xidmətə yollanıb. Vətənpərvər olmaqla öz şəxsi nümunəsi ilə gənc əsgərlərin ürəyində Vətənə məhəbbət, cəsurluq, kişilik, yağıya nifrət hisslərini alovlandırıb. 2020-ci ilin 27 sentyabrında İkinci Qarabağ müharibəsi başlayanda köksündə qəhrəman ürəyi döyünən Şamo birincilər sırasında odlu-alovlu səngərdə yerini alıb. O, halal torpağı uğrunda silaha sarılaraq döyüş yoldaşları ilə birgə Füzuli və Cəbrayıl istiqamətində düşmənin istehkamlarını və canlı qüvvələrini məhv edib. Neçə-neçə ölüm-dirim savaşının qalibi olan igid Vətən oğlu 2020-ci il oktyabr ayının 6-da müharibə meydanında böyük şücaət göstərərək şəhadətə yetib.

Vətən, torpaq uğrunda canından keçərək şəhidlik zirvəsinə ucalmaq ən böyük şərəfdir. Bu müqəddəs yolu seçənlər Günəş ömrü yaşamaqla heç zaman ölmürlər. İndi adı bütün Azərbaycanda fəxrlə, qürurla çəkilən Şamo da belə...

*Zəfər Orucoğlu,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

# Azərbaycanda bütün şagirdlərin psixometrik testdən keçməsi təklif olunur

***"Dövlət İmtahan Mərkəzinin saytında müvafiq keçid var və biz müraciət edənlərə psixometrik testlərlə hansı sahədə özünü inkişaf etdirəcəyini müəyyənləşdirib məsləhətlər veririk".***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan Karyera İnkişaf Forumunda DİM sədri Məleykə Abbaszadə deyib.

"Biz hələ ki bu testləri 14-15 yaşlı uşaqlar üçün individual qaydada keçiririk. Amma bu gün DİM-də məktəb direktorları ilə görüş var. Biz təklif edəcəyik ki, direktorlar müraciət etsin, biz bütün şagirdlərin bu testlərdən keçirilməsini təmin edək", - o vurğulayıb.

Məleykə Abbaszadə qeyd edib ki, bu, tam elmi əsasları olan alətdir, bu testlər yerli mütəxəssislər tərəfindən hazırlanıb: "Geniş auditoriyada tətbiqi və internet üzərindən keçirilməsi üçün də işlər aparırıq".

Məleykə Abbaszadə deyib ki, bu testlər gənclərin kor-koranə ixtisas seçimi etməsinin qarşısını alacaq.



# Müəllimlər üçün esse müsabiqəsinin qiymətləndirmə mərhələsi başa çatdı

***"Ədibin evi" Ədəbiyyata Dəstək Fondunun təşkilati dəstəyi və təşəbbüsü ilə "Azərbaycan müəllimi" qəzetinin 90 illik yubileyi münasibətilə keçirilən "Müəllimliyin insanlıq fəlsəfəsi" adlı esse müsabiqəsinin qiymətləndirmə mərhələsi yekunlaşıb.***




"Unikal" xəbər verir ki, tanınmış təhsil mütəxəssislərindən ibarət 8 nəfərlik münsiflər heyəti müsabiqənin şərtlərinə uyğun təqdim olunan 267 müəllimin 269 essesini qiymətləndirib.

Qalib namizədlər 19 dekabr tarixində keçiriləcək münsiflərin son iclasında TOP20 esse arasından müəyyən ediləcək və ictimaiyyətə açıqlanacaq.

Mükafatlandırma mərasiminin 23 dekabr tarixində "Ədibin Evi"ndə keçirilməsi planlaşdırılır.

Qeyd edək ki, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, yazıçı, müəllim, filologiya elmləri doktoru, professor Mir Cəlal Paşayevin pedaqoji irsinə həsr olunmuş müsabiqənin məqsədi müəllimlik üçün zəruri olan keyfiyyətlər - pedaqoji etika, empatiya və şəfqət duyğularının əhəmiyyətinin təbliği, müxtəliflik və inklüzivliyin, eləcə də peşəkar pedaqoji icma arasında tənqidi və yaradıcı düşüncə tərzinin təşviqidir.

# Əmək müqavilələrinin sayında 609 min artım var

***Ölkəmizdə əmək bazarının tənzimlənməsində müasir üsullar tətbiq edilir. Məhz bunun nəticəsidir ki, ötən illərlə müqayisədə əmək müqaviləsinin sayında 609 min artım əldə edilib. Bunun 80 faizi özəl sektorun payına düşür, yəni özəl sektorlarda 500 mindən çox əmək müqaviləsi imzalanıb.***

Bu sözləri Karyera İnkişaf Forumunda əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deyib.

Nazir qeyd edib ki, dövlət siyasətinin prioriteti Azərbaycan vətəndaşının rifahıdır: "Sosial iqtisadi islahat paketləri çərçivəsində əməkhaqqı fondunun artması istiqamətində uğurlar əldə edilib. Eyni zamanda, 600 mindən çox vətəndaş işə düzəlib, 93 min ailə özünüməşğulluq proqramı ilə təmin olunub. Bu proqramların daha da artırılması hədəflənir".

Əmək bazarının tənzimlənməsində müasir üsulların tətbiq edildiyini bildirən S.Babayev insan resurslarının dəyişən dünyada inkişaf etməsinin şərt olduğunu deyib: "Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 145 elektron xidmət həyata keçirilir. Ötən dövr ərzində xidmətlər bir çox beynəlxalq mükafatlara layiq görülüb".

# Musiqi məktəblərinə işə qəbul üzrə müsahibə keçiriləcək

***Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində olan musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə direktor və direktor müavinlərinin işə qəbulu üzrə müsabiqənin növbəti mərhələsi - müsahibə mərhələsi keçiriləcək.***

2024-cü il 2 iyun tarixində keçirilmiş müsabiqənin test mərhələsindən uğurlu nəticə əldə etmiş namizədlər müsahibə mərhələsində iştirak edə bilərlər. Müsahibəyə qatılmaq üçün namizədlərin qeydiyyatı 19-29 dekabr tarixlərində "MyCulture" platforması (https://my.culture.az) üzərindən aparılacaq. Qeydiyyat başa çatdıqdan sonra, müsahibənin tarixi, vaxtı və məkanı barədə namizədlərə şəxsi kabinet, elektron poçt və SMS vasitəsilə bildiriş göndəriləcək.

Direktor vəzifəsi üzrə "Test mərhələsi" üçün keçid faizi (balı) - Bakı, Gəncə, Sumqayıt şəhərləri və Abşeron rayonu məktəblərində 55 % (55 bal), digər rayonlar üzrə isə 50 % (50 bal) təşkil edir. Direktor müavini vəzifəsi üzrə "Test mərhələsi" üçün keçid faizi (balı) - Bakı, Gəncə, Sumqayıt şəhərləri və Abşeron rayonu məktəblərində 50 % (50 bal), digər rayonlar üzrə isə 45 % (45 bal) təşkil edir.

Müsahibə mərhələsi üçün keçid balı direktor vəzifəsi üzrə 55% (22 bal), direktor müavini vəzifəsi üzrə isə 50% (20 bal) olaraq müəyyən edilmişdir. Keçid balı regionlardan asılı olmayaraq eynidir. Müsabiqənin hər iki mərhələsində minimal tələblərə cavab verən namizədlər, ümumilikdə 20 vakant yerdən birini seçmək imkanı əldə edəcəklər.

Diqqət: Müsahibə mərhələsində iştirak etmək üçün "Digital.Login" qeydiyyatının olması zəruridir.

45_27 IYUI-QARA.qxd 12/19/2024 10:00 PM Page 15





## "Əlillər də orduda xidmət etsin" - Paşinyan

***Ermənistanın Baş nazir Nikol Paşinyan əlilliyi olan şəxslərin də orduda hərbi xidmət etməsi yönündə çıxış edib.***

"Unikal" xəbər verir ki, bu barədə erməni KİV məlumat yayıb. Paşinyanın sözlərinə görə, əlil arabasında oturan adam da orduda xidmət növünü yerinə yetirə bilər: "Məlum olub ki, bizim qanunvericiliyimiz heç bir halda əlilliyi olan şəxslərin Fövqəladə Hallar Nazirliyində, xilasetmə xidmətində işə götürülməsinə icazə vermir.

Bu gün orduda elə xidmət növləri var ki, əlil arabasında oturan, hərəkət qabiliyyəti məhdud olan şəxs səmərəli fəaliyyət göstərə bilər. Bu, bir tərəfdən əlillərin öz imkanlarından tam istifadə etməsinə şərait yaradacaq, digər tərəfdən isə onların ictimai həyata tam inteqrasiyasına şərait yaradacaq".

***Ağarza Elçinoğlu***

## "Ukraynada çoxlu adamlarımız var" - Putin

***"Orada (Ukrayna, - red) ölkəni neonasizmdən təmizləmək arzusunda olan çoxlu oğullarımız var".***

"Unikal" xəbər verir ki, bunu Rusiya Prezidenti Vladimir Putin ilin yekunları ilə bağlı mətbuat konfransında bildirib.

"Ukraynadakı oğlanlarımızdan bizim üçün hansı müasir və dəyərli həll yollarının olduğunu söyləmələrini xahiş edəcəyik" , - deyə Putin bildirib.

***Gülayə Mecid***

## "Ukrayna NATO-da olacaq" - Blinken

***Ukrayna NATO-da olacaq və olmalıdır.***

"Unikal" xəbər verir ki, bunu ABŞ dövlət katibi Entoni Blinken deyib.

O, Ukraynanın NATO-ya üzv olacağına əminliyini ifadə edib: "Lakin bunun üçün ölkə praktik addımlar" atmalı, o cümlədən demokratiyanın gücləndirilməsi və hərbi institutlarda islahatlar aparılmalıdır".

Blinken ABŞ və Almaniyanın Kiyevin alyansa qoşulmasına mane olması ilə bağlı iddiaları rədd edib.

***Ağarza Elçinoğlu***

## PKK-nin məsul şəxslərindən biri məhv edildi

***Türkiyə Milli Kəşfiyyat Təşkilatı (MİT) Suriyanın Qamışlı bölgəsində əməliyyat keçirib.***

"Unikal" xəbər verir ki, MİT əməliyyatında terror təşkilatı PKK /PJAK-ın sözdə məsul şəxslərindən biri Nesrin Amed kod adlı Yayla Kızılkaya zərərsizləşdirilib.

Kızılkaya Türkiyə, İraq və Suriyada həyata keçirdiyi silahlı terror aktlarına görə MİT-in hədəf siyahısında olub.

1993-cü ildə terror təşkilatına qoşulan Kızılkaya 2024-cü ildən təşkilat tərəfindən sözdə məsul şəxs təyin edilib.

***Gülayə Mecid***

# İsrailli sabiq nazir Fransa Prezidentini sərt tənqid edib

***Əgər Fransa Prezidenti Emmanuel Makronun Ukraynadan tutmuş İrana kimi, eləcə də digər məsələlərdə apardığı siyasət obyektiv qiymətləndirilərsə Fransanın riyakar siyasətini və Makron hökumətinin gülüş obyektinə çevrilməsini görmək mümkündür.***

"Unikal" xəbər verir ki, bu barədə İsrailin sabiq rabitə, peyk və kibertəhlükəsizlik naziri, tanınmış siyasətçi və politoloq Ayub Kara ABŞ və beynəlxalq yəhudi diasporunun populyar nəşri "Jewish News Syndicate"də dərc olunmuş "Riyakar mövqe Emmanuel Makronu gülüş obyektinə çevirir" başlıqlı məqaləsində yazıb. Qeyd olunub ki, fransızlar üçün insan haqları öz imperiya maraqlarını genişləndirmək məqsədi daşıyan döyüş fəryadından başqa bir şey deyil. "Bloomberg"in son hesabatına görə, Fransa 2024-cü ildə Rusiyadan rekord miqdarda təbii qaz idxal edib. Bu o deməkdir ki, Makron Paris görüşündə Zelenski və Trampın yanında dayansa da, nəzəri cəhətdən Ukraynanı və Rusiyaya qarşı sanksiyaları dəstəkləsə də, əməldə bunlara riayət etmir. Axı Rusiya qazı Fransa bazarlarından bütün dünyaya satıla bilər və bu, Makronun Rusiya əleyhinə çıxışını kifayət qədər mənasız edir. Fransa bazarındakı reallıq Makronu gülüş obyektinə çevirir.




Həmçinin diqqətə çatdırılıb ki, Fransanın riyakar mövqeyinin başqa bir nümunəsi rəsmi Parisin Tehranla sıx əlaqələridir. Ermənistanın vasitəçiliyi ilə Fransa və İran arasında geniş əməkdaşlıq mövcuddur. Hətta Ermənistanın Baş naziri Nikol Paşinyanla Makron arasında keçirilən görüşdə Fransa lideri erməni həmkarına İrana mesajların çatdırılması ilə bağlı müasir üstüörtülü təlimatlar verib. Sabiq nazir Avropa İttifaqının İrana qarşı daha çox sanksiyalar tətbiq etdiyi halda, Makronun Ermənistan vasitəsilə İranla gizli danışıqlar aparmasını riyakarlıq adlandırıb.

Məqalədə eyni zamanda bildirilib ki, Fransanın İran və Ukraynaya qarşı yürütdüyü siyasət riyakarlığın yeganə nümunəsi deyil. Belə ki, 2020-ci ildə Azərbaycan və Ermənistan arasında Dağlıq Qarabağ münaqişəsinin başlanğıcından Fransa özünün ATƏT-in Minsk Qrupundakı bitərəf vasitəçi roluna zidd, qərəzli mövqe nümayiş etdirib. Minsk Qrupu ilə əməkdaşlıq çərçivəsində Qarabağ münaqişəsinin həllinə mane olmaq üçün səylərini əsirgəməyib.

İsrailli siyasətçi yazısında Fransanın Korsika ilə yanaşı, öz sərhədlərindən minlərlə kilometr uzaqlıqda yerləşən digər dənizaşırı ərazilərə qarşı da müstəmləkəçilik siyasəti apardığını vurğulayıb: "Fransızlar üçün insan haqları onların imperiya maraqlarına xidmət edən vasitədir. Beləliklə, Azərbaycanın Qarabağa haqqı yoxdur, amma fransızların başqa ölkələri müstəmləkə etmək, imperiya təsir dairəsini genişləndirmək hüququ var. Bu riyakar mövqe Makronu gülüş obyektinə çevirən daha bir misaldır".

# Hakan Fidandan Trampın açıqlamasına reaksiya

***Türkiyənin xarici işlər naziri Hakan Fidan ABŞ-nin yeni seçilmiş prezidenti Donald Trampın Suriya lideri Bəşər Əsədin devrilməsində Türkiyə tərəfinin əli olması barədə açıqlamasını təkzib edib.***

"Unikal" xəbər verir ki, XİN rəhbəri bu barədə "Əl-Cəzirə" telekanalına müsahibəsində deyib.

Tramp bəyan edib ki, Ankara çox ağıllı hərəkət edib və Suriyada böyük insan itkisi olmadan qeyri-dost işğalı həyata keçirib.

Fidan vurğulayıb ki, Suriyada baş verən hadisələr Türkiyənin hakimiyyəti ələ keçirməsi kimi qiymətləndirilə bilməz: "Suriya xalqı üçün bu, hakimiyyətin ələ keçirilməsi deyil. Hər hansı bir dəyişiklik olarsa, bu, Suriya xalqının iradəsi ilə olmalıdır. Digər şərhlər sadəcə reallığın təhrifidir".

O əlavə edib ki, bu cür hegemon yanaşmalar tarixdə regiona böyük ziyan vurub və Türkiyə belə mövqeyə can atmır.

***Ağarza Elçinoğlu***



# Daha bir nəşr Trampı "İlin adamı" seçdi

***Britaniyanın "Financial Times" qəzeti ABŞ-nin yeni seçilmiş prezidenti Donald Trampı "İlin adamı" elan edib.***

"Unikal" xəbər verir ki, nəşr bu statusu 2016-cı ildən bəri ikinci dəfə siyasətçiyə verir.

Bu il "Financial Times" hesab edib ki, Trampın yenidən ABŞ prezidenti seçilməsi ölkənin ən yaxın tarixində Ağ Evə "ən dramatik qayıdış" olub. 2023-cü ildə FT Danimarkanın Novo Nordisk əczaçılıq şirkətinin rəhbəri Lars Yorgenseni "İlin adamı" kimi tanıyıb.



Artıq 2017-2021-ci illərdə ABŞ prezidenti olmuş Donald Tramp 2024-cü il noyabrın 5-də keçirilən seçkilərdə qalib gəlib. O, 19-cu əsrdən bəri dörd illik fasilədən sonra Ağ Evə qayıdan ilk Amerika siyasətçisi olub.

Qeyd edək ki, bundan əvvəl "Time" jurnalı da Trampı "İlin adamı" seçmişdi.

***Gülayə Mecid***

# Papaya İraqda sui-qəsd planlaşdırılıbmış

***Roma Katolik Kilsəsinin rəhbəri Papa Fransiskin İraqa səfəri zamanı ona sui-qəsd planlaşdırılıbmış.***

"Unikal" xəbər verir ki, bu barədə Britaniya kəşfiyyatı məlumat yayıb.

Bildirilir ki, Papa Fransisk 2021-ci ilin martında Bağdada tədbirdə çıxışı zamanı kamikadzelərin onu öldürməyi planlaşdırdıqları barədə məlumat alıb. İtaliyanın "Corriere della Sera" qəzetinin yaydığı məlumatlara görə, sui-qəsdi təşkil edən hər iki şəxs zərərsizləşdirilib.

Kəşfiyyat məlumatlarına əsasən, sui-qəsd planını Britaniya tərəfi aşkar edib və onlar İraq polisinə məlumat veriblər.

"Gənc kamikadze olan qadın papanın ziyarəti zamanı özünü partlatmaq üçün Mosula gedirmiş", - deyə məlumatda qeyd olunub.

Koronavirus pandemiyası zamanı üç gün ərzində reallaşan səfər papanın İraqa ilk səfəri olub və intensiv təhlükəsizlik əməliyyatları ilə müşayiət olunub.

***Gülayə Mecid***

45_27 IYUI-QARA.qxd 12/19/2024 10:00 PM Page 16



# Azərbaycanın üç idmançısı dopinqə görə cəzalandırıldı

*Azərbaycanın üç idmançısı dopinqə görə cəzalandırılıb.*



"Unikal" AMADA-ya istinadən xəbər verir ki, Səidə Əliyeva (taekvondo), Günel Vəliyeva (ağırlıqqaldırma) və Rövşən Xəlilov (pauerliftinq) yarışlardan diskvalifikasiya olunub.

Hər üç idmançının cəzalandırılmasına səbəb nümunələrində qadağan edilmiş maddələrin aşkarlanması olub. S.Əliyevada "furosemid", G.Vəliyevada "methyltrienolon", R.Xəlilovda isə "metandienone" aşkarlanıb.

S.Əliyeva yarışlardan iki, digər idmançılar isə dörd il müddətinə uzaqlaşdırılıb. Taekvondoçu ilə bağlı sanksiya başlama tarixi bu il fevralın 16-sı göstərilib.

Dörd illik cəzalandırılan G.Vəliyeva ilə bağlı sanksiyanın isə 2023-cü il sentyabrın 7-dən etibarən başladığı təsdiqlənib.

Pauerliftinqçi R.Xəlilovun cəzası isə 2021-ci il noyabrın 18-dən qüvvəyə minib.

# Vətən Müharibəsi şəhidinin şərəfinə boks turniri keçirilib

***13-17 dekabr tarixlərində Lənkəran - Astara Regional Gənclər və İdman İdarəsinin, Azərbaycan Boks Federasiyasının birgə təşkilatçılığı sayəsində Vətən müharibəsinin şəhidi baş leytenant Vüsal Kazımovun xatirəsinə həsr olunan boks idman növü üzrə IV Lənkəran - Astara region turniri keçirilib.***

Lənkəran Olimpiya İdman Kompleksində baş tutan yarışın açılış mərasimində Dövlət Himni oxunub, Vətən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Lənkəran - Astara Regional Gənclər və İdman İdarəsinin rəisi Teymur Babazadə, Zəfər şəhidi baş leytenant Vüsal Kazımovun atası professor Kamran Kazımov və Azərbaycan Vətən Müharibəsi Veteranlar İctimai Birliyinin Lənkəran rayon şöbəsinin sədr müavini Saleh Dostiyev şəhidlərimizin keçdiyi döyüş yolu, göstərdikləri qəhrəmanlıqların gənc nəsil üçün nümunə olduğunu, ölkə rəhbəri cənab Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhidlərin adının əbədiləşdirilməsi, onların xatirəsinin əziz tutulması, şəhid ailələrinə olan diqqət və qayğısından danışıblar. Həmçinin 44 gün davam edən Vətən müharibəsində düşmən üzərində parlaq qələbə çalaraq tarixi zəfərə imza atan, qanı bahasına torpağı Vətən edən qeyrətli oğlanların xatirəsini uca tutmaq, onları daima yad etmək hər bir vətəndaşımızın borcu olduğu bildirərək, yarışda iştirak edən idmançılara uğurlar arzulayıblar.

Baş hakim Nazim Qulamov yarışa start verib, Lənkəran, Astara və Masallıdan olan 56 idmançı qələbə uğrunda mübarizə aparıb, müxtəlif çəki üzrə yer tutmuş idmançılar diplom, medal və hədiyyələrlə təltif ediliblər.



Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək igidlik və mərdlik göstərmiş, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirərək şəhid olmuş Vüsal Kazımov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə, "Vətən uğrunda", "İgidliyə görə" və digər medallara layiq görülüb.

Qeyd edək ki, Lənkəran Dövlət Universitetinin məzunu olan Vüsal Kazımov şəhidlik zirvəsinə ucaldığı günədək Lənkəran şəhər Uşaq-Gənclər İdman Məktəbinin direktoru vəzifəsində çalışıb. Onun iki qız övladı Vətənə əmanət qalıb. Aynurun 4 yaşı var, böyük qızı Nuray isə 10 yaşındadır.

*Zəfər Orucoğlu, AJB üzvü*

# "Juninyo "Sevilya"ya keçmək istəyir" - Qurban Qurbanov

***"Unikal" xəbər verir ki, bu sözləri "Qarabağ" komandasının baş məşqçisi Qurban Qurbanov İspaniyanın "Sevilya" klubundan Olavio Juninyoya gələn təklif barədə danışarkən deyib.***



Mütəxəssis braziliyalı hücumçunun La Liqa təmsilçisinə keçmək istəyini gizlətmədiyini bildirib: "Juninyo hər şey qaydasında olacağı halda, "Sevilya"ya gedə biləcəyini söylədi. Əsas oyunçuların komandadan getməsi işimə mane olur. "Qarabağ" transfer zamanı futbolçulara az məbləğ ödəmir. Artıq Avropa bazarına çıxmışıq. Bu, yeni və perspektivli bir addımdır. Klubumuza kənardan diqqət daha da çoxalacaq və liqamıza maraq artacaq. Azərbaycan futbolunun transfer bazarında iştirak etməsi həm bizim, həm də ölkə futbolunun inkişafı üçün müsbət məqamdır".

Qeyd edək ki, "Qarabağ" "Sevilya"nın ilk təklifini qəbul etməyib.




# Avropanın daha bir klubu Juninyo ilə danışıqlara başladı

***"Qarabağ"ın futbolçusu Olavio Juninyo daha bir klubun maraq dairəsinə düşüb.***

"Unikal" AS nəşrinə istinadən xəbər verir ki, İspaniya "Sevilya"sı ilə yanaşı, Serbiyanın "Srvena Zvezda" komandası da braziliyalı hücumçunu transfer etmək istəyir.

Məşhur klubun 28 yaşlı forvardla danışıqlara başladığı iddia olunub.

Qeyd edək ki, "Qarabağ" daha əvvəl "Sevilya"nın Juninyo üçün göndərdiyi ilk təklifi qəbul etməyib.

# Ramil Quliyev Türkiyə yığmasının baş məşqçisi oldu

***Azərbaycan əsilli keçmiş idmançı Ramil Quliyev Türkiyənin atletika üzrə gənclərdən ibarət millisinin baş məşqçisi təyin olunub.***

"Unikal" xəbər verir ki, bu barədə AZƏRTAC-a 34 yaşlı keçmiş atletin özü deyib.

R.Quliyev Türkiyə Atletika Federasiyasının bu vəzifəni ona həvalə etdiyini bildirib. Lakin müqavilənin detalları hələlik bəlli deyil.

Titullu idmançı ötən ay peşəkar karyerasını başa vurub.

Qeyd edək ki, Ramil Quliyev Türkiyə millisinin heyətində dünya və Avropa çempionu olub.

# 2024-ün yekun reytinqi - FİFA-da neçənciyik?



***FİFA milli komandaların növbəti, 2024-cü il üçün isə sonuncu reytinq cədvəlini açıqlayıb.***

Azərbayca millisinin sıralamadakı mövqeyi dəyişməyib. Millimiz 1158,7 xalla 117-ci yerdə qərarlaşıb.

Siyahıya 1867.25 xalla Argentina yığması liderlik edir.

Daha əvvəl xəbər verdiyimiz kimi, Azərbaycan millisi DÇ-2026-nın seçmə mərhələsində Fransa-Xorvatiya cütünün qalibi, Ukrayna və İslandiya ilə mübarizə aparacaq.

Hazırda FİFA reytinqində Fransa 2-ci (1859.78 xal), Xorvatiya 13-cü (1691.59 xal), Ukrayna 25-ci (1554.94 xal), İslandiya isə 70-cidir (1355.1 xal).

# "Bavariya"dan ayrılan futbolçu ABŞ klubunda

***Kamerun millisinin və "Bavariya"nın sabiq hücumçusu Erik Çupo-Motinq MLS-də çıxış edəcək.***

QOL.az xəbər verir ki, 35 yaşlı hücumçu "Nyu-York Red Bulz"a keçib. Bu barədə ABŞ klubunun rəsmi saytı məlumat yayıb.

Kamerunlu forvard yeni klubu ilə 2 illik müqavilə bağlayıb.

Qeyd edək ki, Çupo-Motinq 2024-cü ilin yayında "Bavariya"dan ayrıldıqdan sonra azad agent statusu daşıyırdı. O, "Hamburq", "Nürnberq", "Maynts", "Şalke", "Stok Siti", PSJ, "Bavariya klublarında oynayıb.